TURAL CƏFƏRLİ

# MARAQLI

# FAKTLAR

BAKI–2019

Hazırladı: Tural Cəfərli

Redaktor: Vüqar Məmmədli

Korrektor: Günay Ağayeva

Bədii redaktor: “MS” Dizayn

Kitabda bir-birindən maraqlı faktlar, elmi və fəlsəfi dünyagörüşləri, dini, psixoloji biliklər yer almışdır. Bir çox suallara ən dolğun və dəqiq cavabların əks olunduğu bu kitabın oxucular üçün faydalı və maraqlı olacağına inanırıq.

## SİESTA

Hələ Qədim Romada günorta yeməyindən sonra istirahət etmək kimi bir anlayış var idi. Yunanıstanda bu bir adət halına çevrilmişdi. İspanlar bunu daha da müasirləşdirərək günorta yeməyindən sonra yuxuya "Siesta" adı verdilər. "Siesta" latın sözü olan "hora sexta" dan götürülüb. Mənası "6-cı saat" və ya "günorta" deməkdir. Siestanı çox vaxt "ispan yoqası" adlandırırlar.

Siesta günorta yuxusu deməkdir. Günorta saatlarında qısa yuxu fasiləsinin günü daha faydalı, işi isə daha keyfiyyətli etdiyi hesab olunur.

2008-ci ildə Sara Mednik və onun komandasının apardığı araşdırmalarda 60-90 dəqiqəlik günorta yuxusu ilə bir fincan qəhvənin yaddaşa təsiri müqayisə olunmuş, nəticədə qəhvənin əksinə olaraq günorta yuxusunun yaddaşı gücləndirdiyi məlum olmuşdur.

Günorta yuxusunun iş fəaliyyətini də artırdığına inanan bəzi şirkətlər işçilərinə iş yerində yatmaq üçün şərait yaradır. Günorta yuxusu üçün ən ideal saat 14:00-16:00 arası hesab olunur. Günorta yuxusu üçün 60-90 dəqiqə kifayət edir. Siesta artıq bir çox ölkələrdə tətbiq olunur.

## Qiymətli daş "Qarışqa Qranatı"

Unikal mineral olan «Qarışqa qranatı» dünyanın sadəcə bir yerində, ABŞ-ın Dörd Künc deyilən ərazisində var. Bu dəyərli və qiymətli mineralın kristallarını yalnız qarışqa yuvalarının yaxınlığında tapmaq mümkündür. Belə ki, qarışqalar yuva düzəldən zaman yerin altından 4-9 mm ölçüdə qranat daşları çıxarıb yuvalarının ətrafına düzürlər.

Tərkibində xromun miqdarı böyük olduğuna görə rəngi qan qırmızıdır. Hansı səbəbə görə qarışqaların bu daşları yerin altından çıxarıb yuvalarının ətrafına düzməsi illərdir ki, elm adamlarında maraq yaradır. Müşahidəçilər bu minerallardan əlavə yuvaların ətrafında bir sıra digər mineralların, məsələn peridotitlərin, eklogitlərin olduğunu da görüblər. Güman edilir ki, qarışqaların qırmızı rəngə xüsusi marağı var.

Bu mineralın populyarlığı təkcə zərgərlik sənayesindəki işçilər arasında deyil, həm də şəxsi kollektorlar arasında yüksəkdir.

Qarışqa qranatı minerallarını yalnız yağışdan sonra toplamaq mümkündür. Hər bir şiddətli yağışdan sonra (burada çox nadir olan bir hadisədir), yüzlərlə adam bir-birinə qarışır və ətrafını diqqətlə araşdırmağa başlayır.

Qarışqa qranatı digər növlərdən gemolojik xüsusiyyətləri ilə fərqlənir. Möhkəmliyi — 7.25, sıxlığı isə — 3.8-dir.

Enerji vampirləri ilə mübarizə yolları

Bionerji terapevti Lyudmila Morvina həyat enerjisi haqqında vacib tövsiyələr verib.
Biz hər gün həyat enerjisini daim oğurlayan insanlarla qarşılaşırıq. Amma bunun niyə və necə baş verməsi, eləcə də enerji vampirləri ilə mübarizə üsulları barədə bizə məktəbdə heç kim heç nə öyrətmir.

Artıq heç kimə sirr deyil ki, insan sadəcə fiziki varlıq deyil, həm də alimlərə çoxdan məlum olan enerji sahəsidir. Bu, beynin elektrik şüaları, neytron və neytrinlər, eləcə də bionerji və ya bioplazmadır.

Bionerji mütəxəssisləri iddia edir ki, insanlar hər zaman, hətta yatdığı və ya səssiz olduğu vaxtlarda da aralarından enerji mübadiləsi baş verir. Başqasının energetika sahəsi ilə qarşılıqlı təsirini şüuraltı olaraq hiss edirik, biz buna ya əhval-ruhiyyənin, ya da fiziki vəziyyətin dəyişməsi ilə ona reaksiya veririk. Əgər hər hansı insanla münasibət qurmaq sizin üçün asan və xoşdursa, onunla eyni anda susa bilirsinizsə, deməli, enerji mübadiləniz əla gedir, siz bir-birinizi mənəvi baxımdan qidalandırırsınız. Odur ki, bundan hər ikiniz qazanırsınız. Əgər siz qıcıq, təşviş, hətta qəfil ağrı və ya gücünüzün birdən-birə yox olduğunu hiss edirsinizsə, deməli, o adam sizin üçün enerji oğrusudur.

Bionerji hər kəsə qan və limfalar kimi vacibdir. Amma bəzi vaxtlarda enerjinin səviyyəsi inanılmaz dərəcədə aşağı düşür. Enerji çatışmazlığının səbəbləri müxtəlif ola bilər: ağır xəstəlik, qocalıq, güclü yorğunluq və s. Lakin insanı heç nə qəzəb, qıcıqlanma, həsəd, günah və qısqanclıq kimi mənfi hisslər qədər yormur. Sadalanan bütün neqativlər insan enerjisinin tükənməsinə yol açır. Məhz həsəd, paxıllıq və qəzəb kimi emosiyalar enerji sahəsində dəliklər yaradaraq gücün bu dəliklərdən «axmasına» şərait yaradır. Dolayısı ilə enerji itkisinə məruz qalan insan tükənməkdə olan ehtiyatlarını doldurmağın yollarını axtarmağa başlayır.

İctimai nəqliyyat istifadəsi insan enerjisinin tükənməsinə səbəb ola bilər. Biz hər səhər hirsini başqalarının üstünə tökməyə hazır olan sərnişinlərlə rastlaşırıq. Ümumi əhval-ruhiyyəyə daha çox məruz qalsanız, bədbəxtlik içində «vahid» olma riskiniz daha çoxdur.

Sakit, nikbin insanların bionerji sahəsində adətən tarazlıq hökm sürür və o qızıl yumurtanı xatırladır. Belə enerji sahəsini pozmaq çətindir. Amma acgöz «vampir» potensial qurbanın enerjisini soraraq özü ilə bərabərləşdirməyə çalışacaq. Resept sadədir: sizi qəzəbləndirməyə çalışacaqlar. Hirsləndiyiniz zaman emosiyalarla birlikdə enerjinin böyük hissəsini də boşaldırsınız.

Arzu olunan enerji «qonaqlığını» qorxu vasitəsilə də almaq olar: qorxu insanın aurasında «deşiklər» əmələ gətirir. Energetika vampiri onların arasından girərək öz ziyafətinə başlayır.

Çox vaxt qurbanlıq səcdəgahına könüllü olaraq gedirik! «Səndən başqa heç kəsə etibar edə bilmərəm", "Elə bədbəxtəm ki..." sözlərinə necə biganə qalmaq olar? Bu zaman ürəyiniz açılır və enerjiniz sanki deşikli qaz balonundan axaraq azalır. Kiminsə ağrı və acılarını dinlədikdən sonra hər zaman dəhşətli yorğunluq və laqeydlik hiss edirsiniz.

Bəzən enerji vampirini siz daha yaxın ətrafda tapa bilərsiniz. Yaxınlarınızdan heç kim sizdən daha çox enerji sormağı və zərər verməyi qarşısına məqsəd qoymur. Bu, şüuraltı səviyyədə baş verir. Birlikdə yaşamağın müsbət tərəfləri odur ki, zəruri hallarda ailə üzvləri bizi avtomatik olaraq „enerji" ilə „qidalandırır".

Evli cütlüklərin enerji balansının nə qədər ahəngdar olmasına baxmayaraq, heç kim gözlənilməz uğursuzluqlardan sığortalanmayıb. Həyəcanlanmış qadınlar həyat yoldaşının vəziyyətində narahatlıq sezir, amma məsələnin nə olduğunu anlamırlar. Bir çox hallarda kişilər münasibtələrə daha az şəxsi enerji sərf etməyə başlayanda, qadınlar elə düşünür ki, həyat yoldaşının sevgisi tükənib.

Həyəcan siqnalı qaldırmağa və şikayət etməyə tələsməyin. Bu dəyişikliklərin nə ilə bağlı ola biləcəyini düşünün: bəlkə əriniz işdə yorulub və ya səhhəti pisləşib, yaxud da səbəb işdə hər hansı böhran vəziyyəti və qohumlar arasında yaranmış narazılıqlardır. Odur ki, kişi tez-tez istirahət etmək, psixoloji rahatlıq və ya təklik tələb edir. Ona kömək edin.

Qalmaqal isə bir insanın həyat enerjisini sormaq üçün ən etibarlı bir üsuldur. Söz-söhbət nəticəsində yaranan boşluq təhqiramiz sözlərin mübadiləsi ilə deyil, qışqıran adamın əhəmiyyətli miqdarda güc itkisi ilə bağlıdır. Əgər münaqişələrin müntəzəm təşviqatçısınızsa, əminliklə demək olar ki, siz əriniz, oğlunuz, atanız və s. şəxslərin enerjisi ilə "bəslənirsiniz".

Bir çox ailələrdə qalmaqalların baş vermə səbəbi ər-arvadın enerji mübadiləsinin başqa bir üsulunu bilməməsi ilə izah edilir.

### Həyatın rəngi

3-4 yaşadək olan uşaqlar müəyyən bir risk qrupu kimi təsbit edilə bilər: onların enerji təhlükəsizliyi aşağı səviyyədədir və valideynlərin ruhi vəziyyətindən çox asılıdırlar. Lakin o da həqiqətdir ki, uşaqlar enerji balansını böyüklərdən daha sürətli bərpa edirlər.

Bionerji mütəxəssisləri uşaqlar və yeniyetmələrin yaşlı insanlarla birlikdə çox vaxt keçirməsini tövsiyə etmir, çünki nadir hallar istisna olmaqla yaşlılar böyük bir enerji çatışmazlığına məruz qalır və onu avtomatik olaraq asan əldə bilən insanlardan özünə çəkir. Əgər uşaq əsassız olaraq zəif və solğun hala düşübsə, bunun səbəbi enerji vampiri ilə əlaqəli ola bilər.

### Cinsi əlaqə sağaldır

Enerji qurbanı və ya vampiri olmamaq üçün enerji potensialına diqqət yetirmək, müntəzəm olaraq artırmaq, emosiya və iş yükünə nəzarət etmək və daimi olaraq heç olmasa bir az müsbət təəssüratların olmasına diqqət etmək lazımdır.

Doğru enerji balansını bir neçə yolla saxlamaq olar. Məsələn, istirahət, yoqa, meditasiya yardımı və s. İlahi qüvvələrə müraciət etmək üçün dua, dini rituallar və digər üsullar da çox

güclüdür. Yeri gəlmişkən, seks enerji mübadiləsinin ən qədim üsullarından biridir.

İn və yanın birləşməsi çox xüsusi hormonlar yaradır. Serotonin hər iki tərəfdə xoşbəxtlik hormonları artırır, bunun nəticəsində özünə güvən yüksəlir.

Paradoksal olsa da, fiziki məşqlər də enerji səviyyəsini artırır. Əsas odur ki, həddi aşmayın. Mümkünsə torpaqda ayaqyalın, tonqala və axan suya baxın, tez-tez təbiət gəzintilərinə çıxın. Ağaclar və çiçəklər ilə ünsiyyət daxili rahatlığı və harmoniyanı bərpa edir.

### Futbol, pivə və duş

Daimi enerji çatışmazlığını doldurmaq üçün köhnə, sübut olunmuş yolları sınaqdan keçirin. Məsələn, ev heyvanı almaq və ya evinizi çiçəklərlə bəzəmək çox effektlidir. Hər hansı bir bitki (lion gülü, orxideya və digər bataqlıq gülləri istisna olmaqla) və ev heyvanları yalnız gözü oxşamır, həm də ruhu sağaldır.

Dostlarla ünsiyyətə yatırılan enerji də itirmir. Bənzər fikirli insanlar eyni ritmdə işləyir, bir-birlərini sakitləşdirir və tamamlayır. Odur ki, rəfiqələrlə görüş sağlamlıq üçün əhəmiyyətlidir, eyni ilə ərinizin futbola, pivəyə və saunaya ehtiyac duyduğu kimi.

Kiçik hobbi və evin bir küncündə özünüz üçün ayırdığınız, heç bir kənar təsirlər olmayan guşə haqqında unutmayın. Bu, hətta adi bir kreslo ola bilər.

### Bəs enerji vampirinin hücum hədəfi olmamaq üçün nə etməliyik?

Əvvəlcə aranızda bir maneə qoymağa çalışın. Bir stul, bir ağac və s. ola bilər. Narahatlıq hiss etməyə davam edirsinizsə, aranızdakı məsafəni artırın.

Əgər ayağa qalxan zaman təhlükənin qarşısını ala bilmirsinizsə, ya qollarınızı çarpaz qatlayın, ya ayaqlarınızı bükün və yaxud barmaqlarınızı X şəklində tutun. Qarşı tərəfi qıcıqlandırmamaq üçün bu işarəni ya cibinizdə, ya da kürəyinizin arxasında edin. Qədim inanclar bəzən çox effektli olur.

Enerji sızıntısını dərhal dayandırmaq üçün hər hansı bir yol yoxdursa, bu prosesi şüurlu olaraq təkrar edin. Məsələn, zehni olaraq sevdiklərinizə qəzəb yox, məhəbbət göndərin. Ananız və ya qəzəbli əriniz haqqında düşənərək ona „Mən səni sevirəm və yalnız yaxşılıq diləyirəm“ deyin. Nə qədər qəribə olsa da, işləriniz yoluna düşməyə başlayacaq, bədbəxtlik sizdən dərhal uzaqlaşacaq və qəzəb azalacaq. Sevgini bölüşməklə bir şey itirməyəcəksiniz: nə qədər çox sevgi versəniz, bir o qədər sevgi və daha çox qazanc əldə edirsiniz.

Bioenergetiklər iddia edir ki, nöqsanlarımız üzük və ilmələrdir. Enerji vampirləri onları öz buynuzlarına keçirərək enerjimizi sorur. Əgər ələ keçirməyə heç nə yoxdursa, enerji itkisi də yoxdur. Odur ki, mehriban, səmimi, gülərüz və qayğıkeş olmaq, həm də öz enerji təhlükəsizliyinizi təmin etmək deməkdir.

## Atlara nal nə üçün lazımdır?

Atlara nə üçün nal vururlar, axı təbiətdəki vəhşi atlar nal olmadan da çox gözəl keçinə bilirlər?

Atları əhliləşdirmə prosesində onlar öz yaşadıqları şəraitdən uzaqlaşdıqlarına görə dırnaqlarının çox zədələnməsi halları baş verir. Bir tərəfdən, onlar açıqlıqda deyil, tövlədə yaşayırlar. Buna görə də, onlar vəhşi atlardan daha az hərəkət edirlər və dırnaqları daha yumşaq olur. Digər tərəfdən, ev atları ağır fiziki işlər görür — insan və yük daşıyırlar.

Bundan əlavə, onlar daim bərk asfaltda qaçmalı olurlar. Bütün bunlar atın dırnaqlarının yeyilməsinə gətirib çıxarır, dırnaqlar böyüdükdən daha sürətli köhnəlirlər. Vəhşi atlara belə təhlükə yoxdur, çünki onlar açıqlıqda gəzir, öz gedecəkləri yolu özləri seçir və ən yumşaq yerlərdən keçərək maneələri asanlıqla aşırlar.

Atlarda dırnaqların yeyilməsi ayaq zədələnmələrinə gətirib çıxara bilər. Yaralı ayaqla gəzmək atlar üçün ağrılı olduğundan onlar axsamağa başlayır. Nal atın dırnaqlarını belə travmalardan, zədələnmələrdən qoruyur. Qışda atın sürüşməməsi üçün xüsusi tırtıllı naldan istifadə edirlər.

Nal metaldan (polad, alüminium) hazırlanır və xüsusi mismar vasitəsilə atın dırnaqlarına vurulur. Xeyli müddət əvvəl insanlar at dırnaqlarının aşınmadan qorunmasının lazım olduğunu anladılar.

Birinci dəfə Asiyada, atlara ayaq geyimi hazırlamağa başlanıldı. Atlara dəridən, qamışdan xüsusi «ayaqqabı» hazırladılar. İlk nallar ayaqqabı şəklində olub. Mismar vasitəsilə bərkidilən nalların yaranması bizim eradan əvvəl II əsrə aiddir.

## Niyə yəhudilər başqa xalqlardan ağıllıdırlar?

Əslində bu fikir yəhudilərin ancaq bir qrupuna - aşkenazi yəhudilərinə aiddir. Bütün Nobel mükafatlarının 26 faizini məhz onlar alıblar. Tanıdığınız məşhur aktyor, rejissor, bankir, alimlərin çoxu məhz aşkenazilərdir.

Aşkenazilər subetnik qrup olaraq Mərkəzi Avropada (Almaniya, Polşa) yaranıblar. Onların danışdığı İdiş dili Hind-Avropa dil qrupunun Alman qanadına daxildir.

Aşkenazilərin subetnos kimi formalaşmasının tarixi erkən orta əsrlərdən — “qaranlıq dövr” adlanan mərhələdən başlayır. Müasir genetik araşdırmalar göstərir ki, aşkenazilər 350 nəfərlik bir qrupdan başlanğıc götürüblər. Onların hamısı bir-birilə qohum olub və ancaq qohum nikahları vasitəsilə artıb-çoxalıblar.

Erkən xristianlıq dövründə aşkenazilərin vəziyyəti çox ağır idi, onları bütün sahələrdən möhkəm sıxışdırılırdılar. O dövrün əsas gəlirli məşğuliyyəti olan hərbi xidmətə və torpaq əkib-becərməyə yaxın buraxılmırdılar. Buna görə də onlar ya acından ölməli, ya da ticarət, sələmçilik, təbabət, elmi fəaliyyət kimi işlərlə məşğul olmalı idilər, başqa yol qalmırdı.

Nəticədə əsrlər boyunca ancaq maliyyə və intellektual işlərlə məşğul olan, yalnız bir-birilə qohum nikahlarına girən qapalı qrupu təsəvvür edin... Yeni tarixi dövrdə subetnos cəmiyyətə açılanda qrupdaxili nikahlar onlarda artıq selektiv üstünlüklər yaratmışdı.

Həmin dövrdə başqa bir özəllik önə çıxdı: Varlı yəhudilər öz qızlarını nə qədər kasıb olsa belə, savadlı gənclərə, əsasən də dini məktəblərin məzunlarına (yeşiv) verməyə çalışırdılar. Ona görə də, intellektual sahələrdə üstünlük qazanmaq bacarığı bu gün aşkenazi sebetnosunun genindədir.

Amma həsəd aparmağa tələsməyin, çünki medalın əks tərəfi də var: yaxın qohumlar arasında sıx nikahlar aşkenazilərdə genetik xəstəliklərin son dərəcə geniş yayılması ilə nəticələnib.

Hazırda aşkenazilər artıq qohum evliliklərindən imtina ediblər. Bu isə o deməkdir ki, bir neçə əsrdən sonra vəziyyət bərabərləşəcək və onlar da intellektual qabiliyyət baxımından digər etnik qruplardan fərqlənməyəcəklər.

## “Google”da iş görüşməsi zamanı rast gələ biləcəyiniz 10 sual

Google” kimi nəhəng şirkətin bir parçası olmaq milyonlarla insanın arzusudur, ancaq burada işləmək üçün 5 ali təhsil, böyük təcrübə kifayət deyil. Qeyri-standard düşüncə tərziniz, məntiqiniz və 6-cı hissiniz güclü olmalıdır.

**1.** Saatın saat və dəqiqə əqrəbləri 1 gün ərzində neçə dəfə kəsişir?
**2.** Tennis topunun səthi niyə ipək deyil?

**3.** Bir ölkədə insanlar ancaq oğlan övladlarının olmasını istəyir. Hər bir ailə oğul övladına sahib olana qədər dünyaya övlad gətirir. Əgər ailədə qız övladı doğularsa, valideynlər yenidən uşaq sahibi olmağa çalışır. Belə bir ölkədə oğlanların və qızların nisbəti nə qədər olacaq?

**4.** Gecə saatlarında 4 nəfər evinə getmək üçün asılma körpüdən keçməlidir, ancaq onların cəmi 1 fonarı var. Həmin fonarın enerjisi isə 17 dəqiqə sonra bitəcəkdir. Körpü qaranlıqda fonarsız hərəkət etmək üçün həddindən artıq təhlükəlidir və onu ancaq 2 nəfər birlikdə keçə bilər. İnsanların bu körpüdə hərəkət etmə sürəti isə müxtəlifdir: ən sürətli insan 1 dəqiqəyə, ikinici - 2 dəqiqəyə, üçüncü - 5 dəqiqəyə, sonuncu isə 10 dəqiqəyə köpüdən keçə bilər. 4 nəfər 17 dəqiqəyə köpüdən necə keçə bilər?

**5.** Məktəb avtobusunun içinə neçə qolf topu yerləşər?
**6.** Sizdə 2 yumurta və 100 mərtəbəli binaya giriş imkanı var. Bu yumurtalar çox möhkəm və ya çox zərif ola bilər. Bu isə o deməkdir ki, onlar 1-ci mərtəbən belə düşdükləri halda sına və ya 100-cü mərtəbədən düşdükləri halda belə, sınmaya bilər. Hər iki yumurta tamamilə eynidir. Öyrənməli olduğunuz şey budur: yumurtaların düşdüyü halda qırılmayacağı ən yuxarı mərtəbə hansıdır? Sual isə bundan ibarətdir: yalnız iki yumurtanı qırmaq imkanınız var ikən, bunu neçə cəhddən müəyyən edə bilərsiniz?

**7.** Siz quldur gəmisinin kapitanısınız və siz quldurlarınızla birlikdə oğurladınız sərvəti bölməlisiniz. Əgər quldurların yarısından azı sizinlə razışlmasa, siz öləcəksiniz. Qızılların həm böyük hissəsinin sizə qalmasını, həm də sizin sağ qalmağınızı təmin etmək üçün bölgünü hansı formada edə bilərsiniz?
**8.** Yarım saat ərzində şossedən keçən maşını görmək ehtimalınız 0,95 %-dirsə, 10 dəqiqə ərzində maşını görmək ehtimalınız nə qədərdir?

**9.** Dünyada fortepiano kökləməyi bacaran neçə nəfər var?
**10.** Kanalizasiya keçidlərinin qapağı niyə dairə formasındadır?

**Cavablar:**
**1.** 22 dəfə
**2.** Topun gec köhnəlməsini təmin etmək və onun sürtünmə nisbətini artırmaq üçün
**3.** 50/50
**4.** 17 dəqiqə
**5.** 884 520 şar
**6.** 14 cəhd
**7.** Bütün komandanın 51 %-ın arasında tam yarıya bölməklə
**8.**0,63 %
**9.** Hər 40 fortepianoya 1 nəfər
**10.** Dairə formasında qapaq içəri düşə bilməz

## Paris Notr-Dam kilsəsi haqqında maraqlı məlumatlar

1. Fransa paytaxtının simvollarından biri hesab olunan tarixi Paris Notr-Dam kilsəsi və ya Paris Məryəm ana kilsəsi – Paris şəhərinin mərkəzində, Sena çayı sahilində yerləşir.

**2.** O, Parisin ilk xristian kilsəsi hesab edilən, Müqəddəs Stefan bazilikasının yerində tikilib. Təəssüf ki, bazilika Fransa ərazisini işğal edən Normanlar tərəfindən məhv edilib.

**3.** Notr-Dam kilsəsinin tikintisinə 1163-cü ildə kral VII Lüdovikin vaxtında başlanılıb. Məbədin tikintisi təxminən iki əsr davam edib. Qotik üslublu kilsə 1163-1345-ci

illərdə Paris yepiskopu Moris de Süllinin təşəbbüsü ilə ucaldılmışdır.

**4.** Kilsənin tikintisində həm qotik, həm də roman memarlıq üslubunda elementlərdən istifadə olunub.

**5.** Tikinti zamanı ideya olaraq kilsənin bütün Paris əhalisinin yerləşə biləcəyi böyüklükdə olması planlaşdırılıb. O vaxt Parisin 10 minə yaxın əhalisi olub.

**6.** Kilsədə böyük divar yoxdur. Bütün bünövrəni tağları birləşdirən sütunlar təşkil edir. Transeptin hər iki tərəfindəki qızılgül pəncərələri öz həcmlərinə görə Avropada ilk sıradadır və onların diaqramları 13 metrdir.

**7.** Kilsənin inşası tamamlandığında kilsə qərbin ən böyük kilsələrindən biri olmuşdu. İnqilabi mübarizədən sonra 1844 — 1864-cü illərdə arxitektor Violle-le-Dükün rəhbərliyi altında kilsə restavrasiya olunmuş və kilsə memarlığına yeni motivlər əlavə edilmişdir.

**8.** Özündə həm dini həm də tarixi motivləri ehtiva edən kilsə Fransa tarixinin müəyyən epizodları ilə yaxından əlaqəlidir. Belə ki, 1239-cu ildə Müqəddəs Tacın orta əsrlər Kral kilsəsinə gətirilməsi burada baş verib. Krallar müharibələrə getməzdən öncə burada dua oxuyub. 1302-ci ildə IV Filipp parlamentin ilk iclasını burada çağırıb. VI Henrinin tacqoyma və 1804-cü ildə Napoleonun İmperator tacını qəbuletmə mərasimi bu kilsədə baş verib. Fransanın xalq qəhrəmanı Janna Darkın ölümündən sonra məhkəmə prosesi məhz bu kilsədə keçirilib və o bəraət alıb.

**9.** Fransa inqilabı zamanı xalq kral hakimiyyətinin simvolu hesab olunan kilsəyə hücum edərək, kralların fasadda qoyulmuş heykəllərinin başlarını qoparıb. Həmçinin hücum zamanı bir sıra tarixi əhəmiyyətli əşyalar məhv edilib. Yalnız inqilabçıların partlayıcı maddələri bitdiyindən bina dağılmaqdan xilas olub. Kilsədən ərzaq anbarı kimi istifadə edilməsinə başlanılıb.

**10.** Dahi fransız yazıçısı Viktor Hüqonun eyniadlı tarixi romanı sayəsində kafedral dünyanın ən tanınmış abidəsinə çevrilib.

**11.** Kilsə ilə bağlı ən məşhur film “Notr-Damdan olan qozbel” filmidir. Müxtəlif illərdə bu filmin müxtəlif versiyaları və cizgi filmi çəkilib.

**12.** Bu kilsəni il ərzində 20 milyondan çox insan ziyarət edir. Bu ziyarətçi sayı kilsəni Parisin və bütün Avropanın ən çox ziyarət edilən məkanına çevirir.

**13.** Kilsənin 850 illik yubileyi münasibətilə, kilsənin XXI əsrə keçməsini bildirmək üçün böyük işlər görüldü. Əsas nefin işıqlandırılması restavrasiya edildi, axşam ziyarətləri və konsertlər üçün şərait yaradıldı. 2013-cü ildə ilk olaraq böyük orqanın idarə

edilməsi tamamilə komputerləşdirildi.

**14.** Kilsə 1991-ci ildə YUNESKO-nun Ümumdünya İrsi siyahısına daxil edilib.

**15.** Dünyanın mədəniyyət incisi adlandırılan kilsənin bir hissəsi 2019-cu il 15 aprel tarixində yanğın nəticəsində məhv olmuşdur.

## "Siam əkizləri" ifadəsinin yaranma tarixi

Siam əkizləri" ifadəsinin yaranması tailandlı bitişik əkiz qardaşların (Çanq və Enq Bunker (1811-1874) doğum yerilə bağlıdır.

Qardaşlar 40 ilə yaxın ömürləri boyunca bitişik yaşasalar da ayrılıqda bütün bədən üzvlərinə sahib idilər.

1843-cü ildə Çanq Adelaid Yates, Enq isə onun bacısı Sara Enn ilə evlənmiş. Çanqın 10, Enqin isə 11 uşağı olmuşdu. Qardaşların övladlarının bugünkü davamçılarının sayı min beş yüzə çatır.

Əkizlər həmçinin, Amerika vətəndaşlığına da qəbul edilmişdilər. Darin Strauss onlar haqda kitab, Mark Tven qısa məqalə yazıb, haqlarında dəfələrlə müzikllar yaradılıb və tamaşalar səhnələşdirilib.

1874-cü ildə Çanq pnevmaniyadan dünyasını dəyişir, bir neçə saatdan sonra isə Enq vəfat edir.

Sonralar bitişik doğulan əkizlərə «Siam əkizləri» deyilməyə başlayıb.

## Mahatma Qandi haqqında bilmədiklərimiz

Əsl adı Mohandas Qandi olan, tarixə adını ardıcıllarının verdiyi Mahatma Qandi ləqəbi ilə "böyük ürək", " böyük müəllim" yazdıran Mahatma Qandi Hindistanın ən yüksək kastası hesab edilən "ticarətçilər" təbəqəsinə mənsub idi. Babası Ota Qandi Britaniya Hindistanının Qucarat knyazlığında atası Karamcant Qandi isə öncə Porbandara sonra isə Radjkot knyazlığında baş nazir vəzifələrində çalışıb.

Qandi adının mənası "dükançı", "ticarətçi" anlamını verir. Qandi 13 yaşındaykən ailəsi tərəfindən öz həmyaşıdı ilə evləndirilib.

Hindistanda şiddətsiz inqilab edən Qandi ardıcılları tərəfindən verilən Mahatma ləqəbini heç zaman işlətmirdi. Bəzi şəxsiyyətlər haqqında əfsanələr yayılır, bunlardan biri də Qandidir. Onun hər zaman köhnə və cırıq-sökük paltar geyinib ayaqyalın gəzməsi də bu miflərdən biridir. O ilk dəfə İngiltərəyə getdikdə ətrafındakı hər kəsə sübut etməyə çalışırdı ki, bir hindli öz adət-ənənələrindən çıxmadan da avropalı kimi dünyagörüşlü, centlmen ola bilər.

Qandi Britaniyaya ağ flanel kostyumda daxil olsa da, qısa zaman ərzində avropalılar kimi geyinməyi, cəmiyyətdə özünü aparmağı öyrənir, hətta musiqi və rəqs dərslərinə yazılır. Qandinin Britaniyada daha bir kəşfi isə ingilis əhalisinin bəzilərinin vegeterian olması olur. Buna o qədər təəccüb edir ki, İngiltərədə vegeterian assosiasiyasının katibi vəzifəsində də çalışır.

Britaniyada parlaq gələcəyi olsa da Qandi vətəninə dönərək vəkilliklə məşğul olur. Hindistanda azadlıq uğrunda şiddətsiz inqilaba başlayan Qandi haqqında Luis Fişer "Qandi və Stalin" kitabında qeyd edir ki, 1938-ci ildə Qandidən yəhudilərin taleyi haqqında soruşduqda cavab verir ki, alman yəhudiləri kütləvi şəkildə intihar etməlidirlər. Bu hərəkət "dünyada və alman xalqında Hitler rejiminə qarşə qəzəb yaradacaq".

Tarixdə tez-tez həbs olunması ilə də yadda qalan Qandi həbsxananı özünün evi adlandırırdı. 1931-ci ildə yenidən Britaniya kraliçası tərəfindən İngiltərəyə dəvət olunan Qandiylə həmin görüşü işıqlandıran jurnalist arasında maraqlı dialoq yaşanır. Bukinqam sarayına gələn Qandi Hindistanın milli geyimində, sandalda daxil olur. Bu zaman bir jurnalist "sizə elə gəlmir ki, bu görüş üçün yetəri qədər paltar geyinməmisiniz?" soruşanda Mahatma Qandi Kraliça həzrətlərinin üstündə ikimizə də yetəcək qədər paltar var" deyib. Hər zaman insanların bərabərliyi üçün mübarizə aparan Mahatma Qandiyə "Nəyə görə üçüncü sinif sərnişin nəqliyyatlarından istifadə edirsiniz?" sualı verildikdə "Çünki dördüncü sinif yoxdur" cavabını verirdi.

1948-ci ilin 30 yanvarında, saat 05:00 radələrində dua etmək üçün "Birla House"a gələn Qandi atəşə tutuldu. Ölümcül yaralanan Qandinin son sözləri "Oh Ram!" oldu. Ölümündən 5 ay əvvəlsə arzusuna çataraq qan tökmədən Hindistana müstəqillik qazandıra bildi. Qandinin doğum günü əksər hindlilər tərəfindən "qeyri-zorakılıq" bayramı olaraq qeyd olunur.

## Karlson kimin prototipidir?

Cizgi filmlərini kim sevmir ki... Hamımız sevirik, yaşımız neçə olur-olsun, baxırıq. Hələ bu uşaqlığımızın cizgi filmidirsə, qaça-qaça gəlirik ekran önünə. İndi də onlardan birindən

danışacağıq – “Balaca və Karlson” cizgi filmindən, daha doğrusu onun qəhrəmanı Karlsondan.

Amma əvvəlcə bir az cizgi filminin özü barədə. Bu cizği filmini rejissor Boris Stepançev Astrid Lindqrenin “Balaca və damda yaşayan Karlson” əsəri əsasında çəkib.

Filmdə Karlson obrazını Vasili Livanov, uşağı Klara Rumyanova səsləndirib. Cizgi filmi Soyuzmultfilm tərəfindən 1970-ci ildə çəkilib. Gələk Karlsona. Bu obrazın yaranma tarixcəsi, demək olar, ən ağlasığmaz və mifik olanlardandır. Ola bilsin, onun prototipi Herman Görinqdir. Astrid Lindqrenin qohumları, sözsüz ki, bu ehtimalı təkzib edirlər. Amma bu mövzu ətrafındakı müzakirə və mülahizələri bu günün özündə də bitib-tükənmək bilmir.

Lindqrenlə Görinqin tanışlığı 20-ci illərdə Görinq İsveçdə aviaşou təşkil etdiyi vaxt olub. Görinq o zaman “gücünün ən çiçəklənən vaxtında” idi. Birinci Dünya müharibəsindən sonra özünəməxsus xarizmaya malik məşhur as təyyarə pilotuna çevrilir, deyilənə görə çox yaxşı da iştahası varmış. Karlsonun kürəyindəki balaca motor da Görinqin pilotluğuna işarə kimi qəbul olunur.

Daha bir maraqlı məqam isə Karlsonun da Görinq “Boş şeydir, olur belə şeylər”, “Gücünün ən çiçəklənən vaxtınd olan kişi” ifadələrini tez-tez işlətməsidir. Əslində kürəkdə motorun olması fikri də Görinqin özünə məxsusudur. O, kürəyində belə motorun olmasını arzulayırmış. Arzusunu dostlarıyla olanda dilinə gətirib. Bu dostların arasında Astrid də varmış.

İndi çox az adam bilir ki, Görinq alman AFMSP-nin analoqu olan İsveçin Milli-sosialist partiyasının idarəedicilərindən biri, üçüncü Reyxin ikinci adamı olub. Karlson haqqında kitabsa müharibədən sonrakı dövrdə, 1955-ci ildə işıq üzü görüb. Ona görə də bu qəhrəmanların bir-biri ilə əlaqəsinin dəqiqliyini israr etmək bir az ağılsızlıqdır. Amma bu məşhur, xarizmatik pilotun obrazının yazıçının yaddaşında iz salması, sonra isə onu bu obrazda canlandırması ehtimalı da yox deyil.

Bəziləri isə bunu ümumiyyətlə, yalan, rus təfəkkürünün uydurması olduğuunu hesab edirlər. Bu barədə əfsanənin 2008-ci ildə MBP-nin Nijeqorod şöbəsinin qəzeti tərəfindən adı çəkilməyən ədəbiyyatşünasa istinadən uydurulduğunu deyirlər. Guya, burada üçüncü Reyxin təşkil edilməsinin süjeti varmış (belə çıxır ki, Hitler uşaqdır, freken Bok - Rem, uşağın anası isə — nə üçünsə Gindenburq). Bunu ardınca isə başqa uydurulma təfsilatlar meydana çıxıb, guya Astrid gəncliyində faşist olub, bu səbəbdən də Görinq Stolkholmda yaşayıb Svensk Luftrafik-də pilot işləyəndə onunla görüşüb (əgər doğrusuna qalsa, 20-ci illərin ən başlanğıcında Görinq hələ faşist deyildi, Astrid isə qəsəbə məktəbinin 8-ci sinfində oxuyurdu).

Gücünün ən çiçəklənən çaağında olan, yaraşıqlı, orta köklukdə, eleqant bığı və saqqalı olan kişini 1901-ci ildə, Karlsonun yaranmasından yarım əsr əvvəl fransız karikaturaçısı Karan D`Aş çəkib.

Kürəyində həmin motor, üstəgəl, dirijabl siqar.

Bu şəkli Lindqren görmüşdü, ya kürəyi motorlu kişi obrazını özü fikirləşib tapmışdı, demək çətindir. Amma tarixdə bir ideyanın bir neçə adamın ağlına gəlməsi faktları bəs qədərdir.

Haqqında nələrin yazılmasından, deyilməsindən asılı olmayaq bu əsər və cizgi filmi bu gün də hamı tərəfindən sevilir, oxunur, baxılır. Yəqin ki, bundan illər sonra da belə olacaq...

## Poçtla göndərilən uşaqlar

XX əsrin əvvəllərində ABŞ-da uşaqları poçtla göndərirdilər. Buna səbəb həmin xidmətin dəyərinin bir dollardan az olması və qatar qiymətindən 10 dəfə ucuz başa gəlməsi idi.

Göndəriləcək uşağı xüsusi poçt çantasına qoyur, paltarına möhür vurur və nəzərdə tutulan ünvana çatdırılırdı. Yol boyu isə poçt kuryerləri uşaqların qayğısına qalırdı.

1913-cü ildə ABŞ-da "Poçt haqqında qanun" qüvvəyə mindi. Bu qanun ölkə iqtisadiyyatı üçün yaxşı stimul oldu. Amerikalılar poçt vasitəsilə ərzaq, paltar, buğda, tütün və dərman ala bilirdilər. Amma qanunvericilik hər şeyi düşünmədiyi üçün hiyləgər iqtisadçılar bundan istifadə etdilər.

Poçt çəkisi 22.68 kq-a qədər olan canlıları da çatdıra bilirdi. Bu ona görə edilmişdi ki, kənd sakinləri poçtla ev quşları göndərə bilsinlər. Amma formal olaraq şərtlər balaca uşaqlara da uyğun gəlirdi.

1913-cü ilin yanvar ayında Biql ailəsi kənd poçtu ilə övladlarını nənələrinin yanına göndərdilər. Xidmətdən istifadə onlara 15 sentə başa gəldi. Yük isə 50 dollara sığortalanmışdı. Bu, poçt vasitəsilə göndərilən ilk uşaq idi. 27 yanvar tarixində isə Savis ailəsi də Pensilvaniyadan qızlarını Şarpsvill şəhərinə göndərdilər. Bu xidmət onlara 45 sentə başa gəldi.

1913-cü ildə bu halı qadağan etmək istədilər və uşaqların heyvan olmadığını bildirdilər. Amma yenə də valideynlər uşaqlarını poçtla göndərməyə davam edirdilər.

1914-cü ildə ABŞ-ın baş poçtmeysteri general Albert Sidney Berlizon poçt işçilərinə uşaq daşımağı qadağan edən qanunu qəbul etdi. Göndərişin qanunla qadağan olunmasına baxmayaraq, amerikalılar 1920-ci ilə qədər uşaqlarını poçt vasitəsilə göndərməyə davam etdilər.

Gözəllik yarışmaları haqda 11 fakt

1. Dünyada ilk "Gözəllik yarışması" üç ilahənin – Hera, Afrodita və Afinanın mifik rəqabəti hesab olunur. Onlar münsif qismində insan oğlu Parisi seçiblər. Paris əsas mükafat olan almanı və ən gözəl adını Afroditaya verib. Qədim Troyada da İlion gözəli yarışmasının keçirildiyi haqda faktlar var. Jüri qismində heykəltəraşlar, müğənnilər və hərbçilər təmsil olunurmuş.

**2.** Azərbaycanda ilk gözəllik yarışmasına qatılan xanım inqilabdan əvvəl, 1912-ci ildə Tiflisdə "Qafqaz gözəli" müsabiqəsinə qatılan Tuğra xanım Talışinskaya olub. Bu ilki Gözəllik müsabiqəsinin qalibi isə iqtisad Universitetinin məzunu Melisa Nuriyevadır.

**3.** Dünyada gözəllik mövzusunda 4 əsas beynəlxalq müsabiqə var: Dünya gözəli, Kainat gözəli, Miss İnterneşinel və Yer gözəli.

**4.** İlk kainat gözəli Finlandiyalı Armi Kuusela hesab olunur. Hərçənd o, həm də ilk imtinaçı sayılır - 1952-ci ildə keçirilən ilk yarışmanın qalibi Arni tacını təhvil verərək ailə qurması ilə çoxunu təəcübləndirmişdi.

**5.** Gözəllik nə qədər subyektiv anlayış olsa da, yarışmalarda xüsusi keyfiyyətlərlə təyin olunur. Yarışmanın qaydalarına uyğun olaraq, qaliblərin seçilməsi üçün boy, bədən proporsiyaları və s. gözəllik standartları əsas götürülür. Bundan başqa bir çox beynəlxalq yarışmalarda tələblərdən biri müsabiqə iştirakçısının ailə qurmaması və uşaq dünyaya gətirmiş olmamasıdır. Həmçinin iştirakçı savadlı və mədəni olmalıdır.

**6.** "Kainat gözəli"nin qalibinin bir sıra öhdəlikləri var: "Kainat gözəli" seçilmiş xanım dünyanı səyahət etməli, Nyu Yorkda yaşamalı və ərə getməməlidir. Bundan başqa o, QİÇS-lə və süd vəzi xərçəngi ilə mübarizəni populyarlaşdırmalıdır.

**7.** 2012-ci ilə qədər transseksuallara yarışmada iştirak etmək qadağan edilsə də, bu tarixdən sonra qadağa götürülür.

**8.** Venesuaelada gözəllik kraliçası yetişdirən xüsusi Akademiyalar var. Bu sahəyə maraq o qədər çoxdur ki, insanlar qızlarını bura göndərirlər. Ən pisi 18 yaşına çatmayan qızların müxtəlif kosmetik prosedurlar və boy uzatmaq üçün hormonal terapiyalar keçməsidir. Bəzən qızların boğazına bərk qidalar qəbul etməsin deyə

xüsusi tor tikirlər. Bütün bunların sayəsindədir ki, beynəlxalq gözəllik yarışmalarında Venesuaela nümayəndələri daha çoxdur.

**9.** Müxtəlif geyimlərdə podiuma çıxan qızlar bikini geyimlərinin sürüşməməsi üçün xüsusi yapışqanlı lentlərdən istifadə edirlər.

**10.** Kainat gözəlinin il tacı min beş yüzdən artıq brilyantla bəzədilib və yarım milyon dollara sığorta olunub. Tac yalnız bir nüsxədə xüsusi sifarişlə hazırlanır və hər il keçmiş gözəlin əlindən yeni qalibə təqdim olunur.

**11.** İndoneziyada müsəlman qadınlarının da gözəllik yarışması keçirilir. Burada meyarlar başqadır. Qızlar səhnəyə hicabda çıxır, jüri heyətində isə ata-anasız uşaqlar əyləşir.

Yarışma müsəlman qadınının üslubunu və eleqantlığını vurğulamaq üçün keçirilsə də, qızlardan mərhəmətli qəlbə sahib olmaq, Qurandan parçalar söyləmək, dini baxımdan qadınlara nəyə icazə verilməsi və ya qadağa qoyulması haqda bilgilərə sahib olmaq tələb olunur. Qalib müsəlman gözəlinə tac və Quran hədiyyə olunur.

## Nə üçün yəhudilər qara geyinirlər?

Ortodoks (və ya pravoslav) yəhudilər gün ərzində Tövratın minimum 613 qaydasına əməl etməlidirlər. Təkcə qara şlyapanın 34 növü vardır ki, bu da öz sahibi haqqında hər hansı bir informasiyanın daşıyıcısı hesab olunur. Məlumatlı adamlar — baş örtüyünün formasından, corabının rəngindən anlayır ki, bu adam yerusəlimlidir, hansı admorun həsididir və ya artıq evlidir.

"İncil" dövrlərində yəhudilər olduqca fərqli geyinir, geyimlərinə görə digər xalqlardan seçilirdilər. Yəhudi müdriklərinin fikrincə, İsrail xalqı öz milli geyimlərinə xəyanət etmədiklərinə görə Misirdən çıxarılmışlar. O zamandan bəri yəhudi xalqı bütün dünyaya səpələnmişlər. Dini nümayəndələr qarşılaşarkən, öz qan qardaşlarını qara paltarın xarakterik formasına görə tanıya bilirlər.

Yəhudilərdə dini-milli tələblərə görə, bütün yəhudilərin istifadə etdiyi "alaha" təməli geyim forması mövcuddur. Bu, başın örtülməsində nəzərdə tutulan dördkünc formalı geyim növüdür. Başdan keçirilməsi üçün deşiyi olan dördkünc və hər küncündə qotazın olması, dördkünc bürüncək -"ponço"nun əsas elementləri sayılır. Ümumilikdə bu bürüncək "talit katan" (və ya "arbekanfec") adlanır və paltarın altından və ya köynəyin üstündən geyinilir.

Amma qotazlar mütləq şalvarın üstündən atılmalıdır. Geyim, əsasən, ağ yun parçadan hazırlanır, bəzi hallarda qara zolaqlar da qoyulur.

Yəhudilərin ənənəvi kişi geyimi - frak və sürtükdür (uzun ətəkli kişi pencəyi). Frakın cibləri olmur və bütün ənənəvi yəhudi kişi geyimlərində olduğu kimi, sağdan sola düymələnir (qeyri-yəhudi standartlarında qadın paltarları bu cür düymələnir). Frak və sürtükdə arxadan dərin kəsik və kəsiyin sonunda iki düymə olur.

Xalatlar, bir qayda olaraq, xüsusi tədbirlər üçün nəzərdə tutulur. Məsələn, bayramlarda qara ipəkdən tikilmiş qara naxışlı xalat, bayram naharında kiş-xalat, yeşive və ya koylele məşğələləri üçün astarsız və ən ucuz parçadan tikilmiş yeşive-xalat geyinilir. Şabbat və Yom Tov günlərində bir çox həsidlər "bekeçe" adlanan xüsusi qara atlas plaşlar geyinirlər. Həsidlərin geydikləri bütün paltarlar (sürtük, xalat və s.) qara ipək sapla və ya parça ilə toxunmuş kəmərlərlə dartılıb bağlanmalıdır.

Şalvarlar, adətən, qara və adi olurlar, bəzi hallarda isə dizə qədər olan ealb-qoyen şalvarlar. Qısa-gödək şalvarları macar həsidləri geyirlər. Bu şalvarlar dizdən qaytanlarla bağlanılır və altından da "zokn" adlanan qara rəngli qolflar (uzun corablar) geyinilir. Bəzi icmalarda, cəmiyyətlərdə isə bayramlarda və Şabbatda qara qolfları ağlarla əvəz edirlər. Bəzi həsidlər isə şalvarın ayaqlarını qolfun içinə qoyurlar, buna kazak qolfları deyilir (kozak-zokn).

Kaftan parça - qara və ya tünd-göy zolaqlı ağ və ya gümüşü parçadır. Bu parça ancaq Suriyada istehsal olunur və kontrabanda yolu ilə Qüdsə gətirilir. Şabbat və bayram günlərində həsidlər gümüşü rəngli kaftandan tikilmiş paltarlarını qızılı rənglə əvəzləyirlər. Bəzən kaftanların üstündən (Şabbat və bayram günlərində mütləq olmalıdır) qəhvəyi atlasdan tikilmiş, yaxalığı sökülmüş bekeşa atırlar.

## Su altında qalmış qitə: Mu

Bir zamanlar Sakit okeanda mövcud olmuş Mu qitəsi 12-14 min il əvvəl yeraltı təkanlar nəticəsində okeanın dərinliklərində qeyb olan sivilizasiyanın adıdır. Fərziyyələrə görə, Mu qitəsi Avstraliya materikindən iki dəfə böyük olub. Bu qitədə 50-70 min il əvvəl sivilizasiya ən yüksək həddə çatıb. XX yüzilliyin əvvəllərinə qədər Mu qitəsi ilə bağlı bütün bilgilər folklor müstəvisində idi və onun haqqında deyilənlər mif və əfsanə hesab olunurdu. İlk dəfə ingilis alimi Ceyms Çörçvard bu qitə haqqında elmi araşdırmalara başladı və 50 illik tədqiqatlardan sonra, nəhayət, itmiş qitə və onun qeyb olmuş mədəniyyəti haqqında elmi dəlillərlə çıxış etdi. Beləliklə, Mu mövzusu ciddi elmi araşdırmaların obyektinə çevrildi.

Sonralar bu araşdırmaların davamçısı kimi türkiyəli Təhsin Mayatəpək Meksikada maraqlı faktlarla qarşılaşır. O, burada on min illərlə yaşı olan lövhə üzərindəki yazılar və işarələrlə tanış olur. Mayyaların ay-ulduz simvolundan istifadə etdiklərini, mədəniyyətlərində

şamanizmin izlərinin olduğunu görür və çox təəccüblənir. Meksikada çalışdığı 3 il (1935-1938) ərzində Təhsin Mayatəpək gördüklərini və araşdırmalarını müntəzəm olaraq raport şəklində həm Atatürkə, həm də Türk Dil və Tarix Qurumuna göndərir. Onun raportları 3 cildlik kitab halında toplanır. Amma göndərdiyi 3 cildlik əlyazmanın 3-cü cildinin də taleyi Mu qitəsinin taleyi kimi olur. 1970-ci ildə əlyazmanın 3-cü cildi Türk Dil və Tarix Qurumunun arxivindən yoxa çıxır. Bu cilddə əski Mayya inancları, ibadət və etiqadlarının qədim türk inancları ilə oxşarlığından bəhs olunurdu.

Bununla belə, Meksikada tapılan lövhələr Mu qitəsinin sirrini çözmək üçün Təhsin Mayatəpəkə yardımçı olmuşdu. Amma amerikalı geoloq Vilyam Niven 1920-ci illərdən başlayaraq Meksikada axtarışlar aparsa da, uzun illər keçməsinə baxmayaraq lövhələrin üzərinə yazılanların sirrini çözə bilməmişdi. Qədim mədəniyyətin sirlərini özündə gizləyən lövhələrin bəzilərinin 22 min yaşı vardı.

Qeyd etdiyimiz kimi, bu lövhələri ilk oxuyan Ceyms Çörçvard idi. O bu mənbələrə istinadən qətiyyətlə söyləyirdi ki, qədim dünyada bizdən daha üstün insanlar və daha yüksək mədəniyyət olub. Bu lövhələr, əslində, bizə məlum olan qədim hind, Babil, Şumer, Misir, Mayya və türk mədəniyyətlərinin Mu mədəniyyətinin varisi olduğunu göstərirdi.

Tapıntılar Mu mədəniyyətinin bütün mədəniyyətlərin anası, beşiyi olduğunu təsdiq edirdi. Təhsin Mayatəpəkin qarşısında dayanan əsas sual da məhz bu idi: ən qədim mədəniyyətin - Mu mədəniyyətinin qədim türk mədəniyyəti ilə nə kimi əlaqəsi var?

O, Türkiyəyə göndərdiyi raportların birində yazırdı:
"70 min il öncə Munu tərk edib yola çıxan yüksək elm sahibi olan insanlar üç müxtəlif istiqamət seçdilər. Onlar Asiya, Avropa və Afrika qitələrinə yayıldılar və yüksək mədəniyyətlərini də özləri ilə bu yerlərə daşıdılar. İlk yola çıxanlar Mu qitəsindən Mayya adıyla çıxaraq Asiyanın şərqində Uyğur adı alan Mu övladları idi".

Ceyms Çörçvard da mayyaların və uyğurların köklərinin Mu qitəsindən gəlməsi və dünyaya mədəniyyətin ilk dəfə onlar tərəfindən yayılması ehtimalı ilə razılaşır.

Təhsin Mayatəpək raportuna davam edərək yazırdı:
"Uyğurlar Asiyanın şərqindən gəmilərlə çıxaraq oradan Orta Asiyaya, Balkanlara və nəhayət, Britaniyanın, İspaniyanın şimalına qədər yayılıblar. Beləcə, Asiyadan Avropanın qərbinə qədər Mu mədəniyyətini, dəqiq desək, qədim türk mədəniyyətini yayıblar".

Təhsin Mayatəpək öz raportlarında təkcə Ceyms Çörçvardın araşdırmalarına əsaslanmırdı. O, Mayya dilini araşdırır və bu dillə türk dili arasında oxşar və ya eyni olan yüzlərlə sözü nümunə gətirirdi.

## Türklərin ilk məskəni

Təhsin Mayatəpək Ceyms Çörçvardın araşdırmalarına, yazdıqlarına və arxeoloji qazıntılar zamanı üzə çıxan lövhələrdən alınan bilgilərə əsaslanaraq yazırdı: "Qədim türklərin ilk vətəni və kökü indiyə qədər bildiyimizin əksinə olaraq Orta Asiya deyil, Sakit okeanda 200 min il öz mövcudluğunu qoruyub-saxlamış və sonra su altında qalmış Mu qitəsi olub. Mu

qitəsinin əhalisi Orta Asiyaya, Mesopotamiyaya, Misirə köç etmiş və burada yüksək mədəniyyətlərini, dillərini və inanclarını yaymışlar. Bu insanların bir qismi Hindistanın qərbindən gəmilərlə Bəsrə körfəzinin şimalındakı Fərat çayının mənbəyinə çataraq sonralar bu yerlərdə Akkad və bir qədər şimalda Şumer əhalisi kimi tanındılar".

Sonralar da Türkiyə alimləri Sinan Meydan, Muazzez İlmiyyə Çığ və başqaları bu yöndə tədqiqatları uğurla davam etdirdilər.

### Mayya və Azərbaycan dilində oxşar sözlər

Mayya və türk dilində, deməli, həm də Azərbaycan dilində işlənən yüzlərlə oxşar və ya ortaq söz var. Onlardan bəzilərinə diqqət edək:

1. Axal – axıntı, su axıntısı, göl
2. Akaan – su axını, sel
3. Baat – balta
4. Bal – baldız
5. Bik – bükülmüş
6. Çakav – atəş, od, yandırmaq
7. Əlkaab – barmaq (əl barmağı)
8. Emən – enmək
9. Qalaan – qalmaq, zindan
10. Kar – qar
11. Kin – günəş, gün, çağ
12. Kabah – qabaq, ön tərəf
13. Kuç – güc, qüvvət; direniş
14. Son – son, sonuc
15. Sulan – sulanmaq, suya batırmaq, yaxalamaq
16. Tasah – daşımaq, gətirmək
17. Tuy – tük, saç
18. Yalat – yalamaq, dadına baxmaq və s.

### Tapıntılar və dəlillər

Mu mədəniyyətinin mövcudluğunu sübut edən dəlillər deyilənlərin heç də əfsanə olmadığını sübut etməkdədir. Onlardan bəzilərinə diqqət edək:

- Sakit okeanda – bir zamanlar Mu qitəsinin mövcud olduğu ərazilərdəki bəzi adalarda olan mağaralarda yaşı yüz min illərlə ölçülən rəsmlər tapılıb;
- burada bir zamanlar inanc yeri olduğu ehtimal edilən abidə qalıqlarına rast gəlinib;
- bu ərazidəki suyun altında hündürlüyü on metrdən yüksək olan piramidalar aşkarlanıb;
- Sakit okeanda yerləşən Paskalya adasında ağırlığı tonlarla ölçülən heykəl qalıqları tapılıb;
- Barneo adasında yaşı 38 min il olduğu təxmin edilən qumaş parça qalıqları aşkarlanıb və s.

Göründüyü kimi, bu, kifayət qədər ciddi mövzudur. Düşünürəm ki, Mu qitəsinin varlığını, Mayya mədəniyyətini, əski Şumer və Akkad, eləcə də digər sivilizasiyaları dərindən öyrənmək, Azərbaycan mədəniyyətinin bu qədim mədəniyyətlərlə əlaqəsini aşkara çıxarmaq üçün ciddi elmi araşdırmalara ehtiyac var.

## "Yaşıl yol"un real qəhrəmanı

George Stinney Jr. ABŞ-da 20-ci əsrdə ölümə məhkum edilən ən gənc insandı. Elektrik stuluna bağlanıb edam edildiyində cəmi 14 yaşı varıydı.

Məhkəmə vaxtı, öldürüləcəyi günə qədər günahsız olduğunu deyib həmişə əlində bir İncil daşıdı. 11 yaşlı Betty və 7 yaşlı Mary adlı qızları öldürməkdə günahlandırılırdı. Səbəb isə sadəcə onların öldürüldüyü evin yaxınlığında tapılmasıydı.

Məhkəməsindəki bütün jürilər ağdəriliydi. Məhkəmə cəmi 2 saat çəkdi və cəza cəmi 10 dəqiqə sonra verildi. Heç bir tərəddüd edilmədən. Öldürülməzdən öncə George hələ cəmi 14 yaşındaykən valideynlərini görmədən 81 gün keçirtdi. Ailəsiylə təmas qurması qadağan olunmuşdu.

Yaşadığı yerdən 80 km uzaqlıqda, onu müdafiə eləməsi üçün bir vəkil belə təyin olunmadan təmtək qalmışdı. Başına 5380 volt elektrik verildi və əzab içində dünyasını dəyişdi.

Ölümündən 70 il sonra əslində günahsız olduğu Cənubi Karolinadaki bir hakim tərəfindən isbat olundu. İki qızın öldürüldüyü alət 19.07 kiloqramdan daha ağır idi, buna görə də Stinneyin onu qaldıra bilməsi mümkün deyildi, iki qızı öldürəcək qədər sərt vura biləcək gücü də yoxuydu. Uşaq günahsızıydı, sadəcə qaradərili olduğu üçün bütün günahlar üzərinə atıldı və daha 14 yaşında ikən bəlkə də minlərlə gözəllik yaşayacağı o həyatı əlindən alındı.

Stephen King Stinneyin hekayəsini eşidəndən sonra çox təsirlənib 1996-cı ildə Green Mile (Yaşıl Yol) kitabını yazır, daha sonra isə hamımızın yaxşı tanıdığı eyniadlı film çəkilir.

## İnsanları zibil təmizləməyə necə məcbur etmək olar?

Almaniyada və xüsusilə Şvabiyada təmizlik, «anadangəlmə» deyil məcburi idi.

Uzun müddət Almanlar zibili, ölü heyvanların külünü, sümükləri mətbəxlərindən bir başa darvazanın ağzına və ya hara gəldi atırdılar. Nəticədə antisanitariya hökm sürürdü, müxtəlif növ xəstəliklər şəhərlərdə və kəndlərdə yayılırdı.

15-ci əsrdə, Vürttemberq qrafını bu qoxu bezdirdi və o, heyvanlar və insanlar tərəfindən istehsal edilən zibilin ən azı gecə saatlarında çaya və yaxud kənar bölgələrə aparılmağının qərarını verdi.

Əlbəttə ki, onlar qərarları unutdular, çünki onların həyata keçirilməsini yoxlamaq mümkün olmadı və hər bir saraya bir polis yerləşdirmək baha başa gəlirdi, rüşvəti ləğv etmək və qanunun icrasına nəzarət etmək çətin idi.

Bu zaman qraf yeni bir fərman verdi, nəticədə Şvabiya şəhərləri kəskin şəkildə təmizləndi. Fərmanın mahiyyəti belə idi: əgər qonşunuzun bir neçə həftə zibil təmizləməsə və siz bu haqqda məlumat verməsəniz, onda yalnız o cəzalandırılmayacaq, həm də siz

cəzalandırılacaqsınız. Əgər bu barədə məlumatı ötürsəniz o zaman onun torpaqlarının bir hissəsinə iddia edə bilərsiniz. Nəticədə, hər şənbə günü hər kəs öz küçəsini təmizləyirdi ki, qonşulardan heç kəs onlar barədə xəbərçilik edə bilməsin.

XIX əsrin "Rapunzelləri"

XIX əsrdə Avropada qadınlarının əsas gözəlliyi onların uzun saçları idi. Həmin qadınlar həmişə mübarizəyə səbəb olurdu. Baxmayaraq ki, xanımlar küçəyə çıxanda başlarında örtük olurdu, amma bəzi fotoqraflar və rəssamlar onların şəklini çəkə bilib.
Birinci yerdə təbii ki, Sissidir. O, Bavariya Yelizavetasıdır. Sissi gün ərzində saçlarına təxminən 3 saat vaxt sərf edirdi.

Vittelsbaxovda uzun və baxımlı saçlar genetik xüsusiyyət idi. Məsələn, Sissi də, bacısı Sofiya da Bavariya Lyudvikinin gəlinləri olub. Bu uzun saçlar onun qızına da keçib — şahzadə Alanson Luizası.
Yunan səfirinin xanımı Meri Spartalinin də çox gözəl saçları olub.
Sidoninin 1,58 m uzunluğunda hörükləri var idi. O, saçlarını 29 il kəsməyib. Bu şəkildə isə onun 15 yaşı var.

Bu xanımı "Saçların kraliçası" adlandırırdılar. Və o, sirklərdə pul qarşılığında öz saçlarından istifadə edirdi.

İndiki dövrdə isə hər halda bu cür saçlara sahib olmaq mümkün deyil.

Tarixin qiyamət ssenariləri

**Pompey fəlakəti**
Roma İmperatorluğunun gördüyü ən qorxunc təbiət hadisəsi şübhəsiz ki, Vezuvi vulkanının püskürməsi idi. Dağ o qədər şiddətli lava püskürmüşdü ki, sadəcə şəhər sakinləri deyil, bütün romalılar dünyanın sonunun gəldiyinə inanmışdı. İki gün ərzində səmanın küllə örtülməsinə səbəb olan fəlakət, xalqın böyük əksəriyyətinin həyatına son qoymuş, Pompey şəhərinin isə xəritədən silinməsinə səbəb olmuşdu.

**London yanğını**
Bütün xristian dünyası 1666-cı ilə qorxuyla girib. İncildə pis hadisələrin xəbərçisi kimi görülən 666 rəqəmindən çəkinən din ictimaiyyətinin qorxduğu başına gəlib. Həmin il baş verən və Londonun yarısını yox edən yanğın minlərlə adamı öldürən vəba epidemiyasının

bütün qalıqlarını da şəhərdən silib.

### Halley kometası

Hər 76 ildən bir dünyanı ziyarət edən quyruqlu ulduz tarix boyu insanları qorxudan ünsür olub. Təqvimlər 1910-cu ili göstərəndə dünyaya yaxınlaşan quyruqlu ulduz böyük narahatlıq yaratmışdı.

### Yahovanın şahidləri

7 milyon insandan ibarət beynəlxalq dini birliyin ilk "əsəri" 1914-cü ildə dünyanın yox olması ilə bağlıdır. İddia edilən fikirlər reallaşmadığı üçün həmin dini birlik öz inanc sistemində dəyişikliklər etmək məcburiyyətində qalıb.

### Planetlərin düzülüşü

Planet toqquşmaları həmişə yeni qiyamət ssenariləri doğurur. 2000-ci il mayın 5-də də Ay və Günəşlə eyni sırada olan Merkuri, Yupiter, Saturn və Venera bəzilərinin dünyanın buzla örtüləcəyinə və ya zəlzələlərlə insanlığın yox olacağına inanmasına gətirib çıxarmışdı.

### İsa dünyaya qayıdır

Din alimi Pat Robertson 1980-ci ildə İsanın dünyaya geri qayıdacağını iddia etmişdi. Robertson, "İsa bir mələyin gurultusu və Allahın şeypurunun səsi ilə birlikdə göydən enəcək və biz bütün insanlar onunla havada görüşəcəyik" demişdi.

### Hale-Bopp Faciəsi

Kəşf edildiyi 1995-ci ildən sonra sadəcə bir dəfə 1997-ci il martın 28-də dünyadan görünən Hale-Bopp kometası həmin gün bir faciəyə səbəb olub. "Cənnətin Qapıları" adlı bir dini birliyin 39 üzvü kometanın dünyaya çox yaxınlaşmasından qorxaraq kütləvi intihar edib.

### Buz fəlakəti

Yazar Riçard Non "Son fəlakət" kitabında 2000-ci il mayın 5-də qütblərdə yeni buzlaşma dövrü olacağını müdafiə etmişdi. Riçard həmin tarixdən sonra bir daha kitab yazmayıb.

### Y2K səhvi

1984-cü ildə "Wall Street Journal" qəzetində yazılan bir xəbərə görə, 2000-ci ilə keçən gecə kompüterlərdə tarix problemi yaşanacaq və bütün sənədlərin yığıldığı server çökəcəkdi. Medianın bu səhvinə görə minlərlə insan yemək tədarükü görmüşdü.

### Qara dəlik fəlakəti

2009-cu ilin sentyabr ayında bəzi elm adamları ən güclü atomun dünyada qara bir dəlik yaradacağına inanmışdı. Hətta bu dəliyin dünyanı udacağı ilə bağlı nəzəriyyəni də müdafiə etmişdilər.

Dünyada ən məşhur qanunsuz ticarət növləri

**İnsan orqanlarının ticarəti**

Bunun qorxunc və Hollivudsayağı səslənməsinə baxmayaraq, belə məhsulun qara bazarda öz yeri var. Hamıya məlumdur ki, insanın normal yaşaması üçün yalnız bir böyrəyə ehtiyacı var. Kasıblar məhz bundan istifadə edirlər və məlum olub ki, onların içində fillipinli, hindli və pakistanlılar üstünlük təşkil edir. Məhz bu ölkələrin sakinləri öz böyrəklərini sizə cəmi 5000 ABŞ dollarına satmağa razıdırlar. Çoxdur?

Bəs tibb müəssisələrində transplantasiya üçün bu orqanın qiymətinin 200 000 ABŞ dolları olduğunu bilsəniz, nə deyirsəniz?! Bundan əlavə, Çində yalnız böyrəklə məhdudlaşmırlar. Lakin orqan sahibləri heç vaxt sağ qalmırlar, çünki onlar ölüm hökmünə məhkum edilmiş insanlardır. Hər il Çində təxminən 4500 məhkum edam edilir və ekspertlər iddia edir ki, bu edamlar məhz orqanların toplanması məqsədi ilə həyata keçirilir.

**İnsan sperması**

Müvəffəqiyyətli konsepsiya üçün Süni mayalandırma tibbi mərkəzləri sizə diqqətlə seçilmiş və sağlam sperma təklif edəcəklər. O ucuz deyil, lakin sağlam və genetik cəhətdən düzgün formalaşmış uşağın dünyaya gəlməsini tamamilə rahat şəkildə gözləyə bilərsiniz. Bundan əlavə, sperma sahibinin faylına baxdıqda, gələcək uşağınızın hansı cizgilər və quruluşa malik olacağını proqnozlaşdıra bilərsiniz.

Bütün bunlar qanunidir. Amma şarlatanlar yerlərində oturmurlar və spermalarını İnternet vasitəsilə satırlar. O kifayət qədər ucuzdur, lakin təbii ki, riski yüksəkdir. Onlar bunu necə edir? Hər şey çox sadədir – tanışlıq saytı və ya sosial şəbəkələr maskası altında belə sperma bazarları gizlənir. Məsələn, bir neçə britaniyalı kişi 800 qadına spermalarını sataraq bir neçə il ərzində 250 min funtdan çox pul qazanıblar.

**İnsan övladları**

Çox nüfuzlu ticarət növüdür. Bəlkə də, inanmayacaqsınız, lakin Braziliyada sözün həqiqi mənasında insan övladı "yetişdirən" qanunsuz ferma mövcuddur. Maraqlıdır ki, yazıq körpələrin əcdadları Almaniyalı immiqrantlardır. Görünür, Ari irqini hələ də dirçəltmək arzusundadırlar. Onların hamısı bir-birinə bənzəyir – sarı saçlı, mavi gözlü və açıq dərilidirlər. Belə körpələri qara bazarda övladılığa uşaq götürmək istəyənlərə satırlar, bu isə qanunun kobud şəkildə pozulmasıdır.

Bu səbəbdən, xarici görünüş baxımından xarakterik xüsusiyyətlərə malik rus uşaqları da yüksək qiymətləndirilirlər. Artıq başa düşdüyünüz kimi, Slavyan genomu xarici alıcılar arasında çox qiymətlidir. Lakin rus uşaqları xarici görünüş baxımından maraqlıdırlarsa, Çinin mövqeyi heç anlaşılmır. Onlar yalnız qız uşaqlarını satırlar, çünki qızların sayı çoxdur. Onların satılmasına göz yumurlar, çünki çox sayda qıza mədəni və siyasi səbəblərə görə ehtiyac yoxdur. Hesablamalara görə, cinayətkar təşkilatlar bu ticarətdən təxminən 32 milyard dollar gəlir əldə edirlər.

Zəm-zəm suyu ilə bağlı maraqlı faktlar

Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına görə, dünyanın ən sağlam və faydalı sularından olan zəm-zəm suyunun sirri hələ də müəmmalı olaraq qalır.

Bu gün texnologiyaların son dərəcə inkişaf etdiyi bir vaxtda belə zəm-zəm suyunun mənbəyi tapılmır.

«Zəm-zəm» sözü ərəbcə «dayan» mənasını verən «zome» sözündən yaranmışdır. Əsrlər boyu haqqında danışılan, ölümsüzlüyün sirri hesab olunan zəm-zəm suyu Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən araşdırılıb. Mənbəyi hələ də tapılmayan su dənizdən 80 kilometr uzaqlıqda yerləşir. Ətrafında heç bir başqa su quyusu yoxdur. Alimləri dəhşətə gətirən faktlardan biri budur ki, həcc mövsümündə milyonlarla zəvvarın su içdiyi quyu əsrlərdi qətiyyən qurumur. Bu quyuya suyun necə gəldiyi isə tam bir müəmmadır.

Başqa quyulardan fərqli olaraq, onun divarlarında mamır və başqa bitkilər bitmir. Quyunun dərinliyi 30 m, diametri 1,08 metrlə 2,66 metr arasında dəyişir. İllər ərzində suyun səviyyəsində heç bir azalma müşahidə olunmur. İçilən suyun bir anda aclıq hissini aradan qaldırması elm adamları tərəfindən izah oluna bilmir. Suyun qəribə tamı olduğunu iddia edən alimlər bu qəribə dadın hardan qaynaqlandığını tapa bilmirlər.

Avropa laboratoriyalarında aparılan araşdırmalarda, zəm-zəm suyunun tərkibində çox az miqdarda kükürd ehtiva etdiyi müəyyən olunub.

Amerikada aparılan araşdırmalarda isə zəm-zəm suyunun tərkibində mikroorqanizm və bakteriya olmayan yeganə su olduğu təsdiqlənib.

Digər sulara nisbətən çox daha qidalandırıcı və mineral maddələrlə zəngin zəm-zəm suyunun quyusu yer üzündəki ən müqəddəs torpaqlarda yerləşir. Məkkə şəhərində, Məscidül-həramın ərazisində yerləşən quyu islam dininin ən müqəddəs yeri sayılan Kəbədən 20 metr şərqdə yerləşir. İslam inanclarına görə, bu bulaq min illər əvvəl, İbrahim peyğəmbərin körpə oğlu İsmayıl susuzluqdan ağladığı vaxt möcüzəvi şəkildə Allah tərəfindən yaradılmışdır. Hər il milyonlarla zəvvar Həcc və ya Ümrə ziyarətləri zamanı bu bulağın suyundan içir və özü ilə götürür. Deyilənə görə, İbrahim peyğəmbərin həyat yoldaşı Həcər xanım bulaqdan su doldurduqdan sonra onun dayanmasını, qurumamasını istəyərkən bir neçə dəfə «zəm-zəm»(dayan) sözünü təkrarlayıb. Suyun səviyyəsinin azalmamasının məhz bununla əlaqəli olduğu deyilir.

Hər dərdə dəva olan suyun baş ağrısını, qızdırmanı anında kəsdiyi deyilir. Gözün görmə qabiliyyətini bərpa etməyə kömək edir.

Yaponiyalı alim Masaru Emoto zəm-zəm suyunu tədqiq edib. Onun sözlərinə görə, möcüzəli su azan oxunan zaman şəffaflaşır. Bu, onu dünyadakı digər su quyularından ayıran əsas cəhərlərdən biridir. Onun sözlərinə görə, suyun tərkibində xlor yoxdur.

Ren çayının suyundan içən insanın enerjisinin azaldığına dair məlumatların gerçəkliyini yoxlamaq üçün almaniyalı mütəxəssis Knut Pfeiffer maraqlı eksperiment keçirib. O, Ren çayının suyu ilə zəm-zəm quyusunun suyunu müqayisə edib. Renin suyundan içən mütəxəssis həqiqətən də bir neçə dəqiqə sonra özünü halsız hiss edib. Daha sonra bir stəkan zəm-zəm suyunu içən Knut 35 dəqiqə sonra vəziyyətinin normallaşdığını müşahidə edib. Baş verən hadisənin səbəbini izah edə bilməyən alim bunun son dərəcə möcüzəli məqam olduğunu deyib.

Knut özünün maraqlı eksperimenti haqqında yazıb:
«Mən bir qədəh şəbəkə suyuna (adi su) bir neçə damcı zəm-zəm suyu qatdım. Suyun tərkibi dəyişərək zəm-zəm suyuna çevrildi. Möcüzəli suyun qəribə xüsusiyyəti var. Öz tərkibini dəyişməyən su istənilən başqa suları öz tərkibinə qata bilir.»

Digər yaponiyalı alim Masaru Emoto isə zəmzəm kristallarını mikroskop altında müşahidə edib. Suyun dəyişkən kristal quruluşa malik olduğunu görən mütəxəssis maraqlı hadisənin şahidi olub. Onun sözlərinə görə kristallar səsə reaksiya verir: «Zəng səsində tündləşən kristallar, Quran oxunanda paklaşır və şəffaf rəng alır».

Yaponiyalı alim Masaru Emoto bildirib ki, zəm-zəm suyun fiziki və kimyəvi xüsusiyyətlər baxımından yer üzündəki bütün sulardan fərqlənir.

Bu suyun yerinin dəyişdirilməsi və satışa çıxarılması ilə bağlı suallar isə cavabsız olaraq qalır. Bir qrup mütəxəssislər, eləcə də din xadimləri zəm-zəm suyunun satılmasında, yaxud yerinin Məkkədən çıxarılaraq dəyişdirilməsində heç bir problem görməsələr də, başqa bir qrup din xadimləri bunun günah olduğunu və belə bir şeyə heç kəsin icazəsinin olmadığını deyir.

## Annaliza Mişel və ekzorsizm

Ekzorsizm (yunancadan tərcümədə — «ovsunlamaq») — cinlərin və ya şər ruhların insanlardan, yaxud müəyyən yerlərdən qovulması, insan cisminə keçmiş bəd ruhların, cinlərin cisimdən kənarlaşdırılması haqqında nəzəriyyədir.

Bir çox xalqlar, sivilizasiyalar və dinlərdə insan bədəninin ruhlar tərəfindən işğal olunmasından bəhs edilir. Bir neçə əsr bundan qabaq şizofreniyanın bu və ya digər formalarını, o cümlədən də Turet sindromuna yoluxmuş insanları da cinlər tərəfindən işğal olunmuş hesab edirdilər.

Annaliza Mişel 1952-ci ildə Almaniyada, katolik ailədə dünyaya gəlib. Uşaqlığında çəkilmiş şəkillərdən bəlli olur ki, o, çox şən və fəal gənc olub. Lakin 23 yaşında hər şey dəyişir. Zəif, döyülmüş, qorxmuş təsiri bağışlayan qız dəli kimi olur. Hesab olunur ki, cinlər gənc qızın bədəninə girib və Annaliza şeytana təslim olana qədər nə az, nə çox düz 8 il mübarizə aparıb.

Annalizadan öncə anası qeyri-nikahdan uşaq uşaq dünyaya gətirir. Bu isə katolik ailəsi üçün utancverici idi. Sonradan, o, ailə həyatı quraraq Annalizanı dünyaya gətirməklə birinci

qızının günahlarını yumaq istəyir. Təəssüf ki, Annalizanın böyük bacısı 8 yaşında ikən vəfat edir. Qız anasının günahına görə, özünü təqsirli hesab edirdi.

Annalizada ilk simptomlar 1968-ci ildən sonra başlandı. O zaman qız 16 yaşlı məktəbli idi. Tez-tez baş verən qıcolmalara görə, həkim ona epilepsiya diaqnozu qoyur. Annaliza məktəbi bitirdikdən sonra müəllim olmaq üçün kollecə gedir. Görünür, tibb sahəsi qıza kömək olmur və onun vəziyyəti getdikcə daha da pisləşir. Annaliza dua edərkən gözlərinə qəribə görüntülər görünür. Şeytanın səsini eşidib, buyruqlarına əməl etməyə başlayır. Daha sonra dini ikonalara nifrətini göstərməyə başlayır. Qızın bu vəziyyətini görən ailə dostu Annalizanı keşişə göstərməyi məsləhət bilir. Keşişlər eksorsizimə əl atmaq istəyirlər.

1975-ci ildə valideynləri həkimlərdən əl üzüb qızı Roma kilsəsinə verirlər.
Annaliza, valideynləri və keşişlər onun tezliklə sağalacağına ümid edirdilər.
Annaliza Mişelin özü etiraf edirdi ki, Neron, Hitler, Lusifer, Habil və digər 6 cin onu idarə edir. 10 ay ərzində atası və keşiş tərəfindən 67 dəfə cin çıxartma ayini keçirildi. Bu ayinlər zamanı qız o qədər zəifləyirdi ki, halsız olub yerə yıxılırdı.

Ölənə qədər yeməkdən tamamilə imtina etməsini təsvir etmək elə də çətin deyil. O, yemək yeməməklə cinin idarəsini zəiflədə biləcəyinə inanırdı.

Ekzorsizm Annalizanı xilas edə bilmədi və gənc qızın vəziyyəti bu ayinlərdən sonra daha da pisləşdi. Hətta ifazatını yalayırdı. Həşəratları yeyir, dini ikonaları sındırır, it kimi ulayırdı.

A.Mişel 1976-cı ildə aclıq və susuzluqdan ölür. 23 yaşlı qız ölərkən çəkisi 31 kq idi. Atası və ayini həyata keçirən iki keşiş onu öldürməkdə günahkar bilinirlər. Məhkəmə istintaqı zamanı ayin həyata keçirilərkən istifadə olunmuş audio və şəkillər təqdim olunur.

Mişelin başına gələnlər hələ də naməlum olaraq qalır. Güman olunur ki, qız şizofreniya və şəxsiyyətin ikiləşməsi sindromlarından əziyyət çəkib.

## Darağın tarixi

Daraq insanların qədim kəşflərindən biridir. Bunu arxeoloji qazıntılar da sübut edir. İlk daraqlar sümük, buynuz və ağacdan hazırlanıb. Şübhəsiz, qadınların ilk kosmetik aləti də məhz daraq olub.

Öz tarixi boyunca daraqlar müxtəlif funksiyalar yerinə yetirirdilər. Şərq qadınlarının ilk daraqları balıq sümüyü olub. Avropada tapılan ilk daraqlar daş dövrünə aid edilir.

Zaman keçdikcə daraqlar varlı insanların fəxr obyektinə çevrildi. Onları qiymətli

metallardan, fil sümüyündən hazırlayıb, üzərini daş-qaşlarla bəzəyirdilər. Orta əsrlərdə daraqların üzərində mələklər, mifoloji heyvanlar təsvir olunurdu. Zaman keçdikcə xüsusi daraq ustaları meydana gəlirdi. Bir usta gündə 10-15 daraq hazırlaya bilirdi.

Bu dövrdə daraqlar daha çox ağacdan hazırlanırdı.1862-ci ildə plastmasın ixtirası ilə daraqlar hamının gündəlik alətinə çevrildi. Həm varlı, həm də kasıblar artıq daraqdan istifadə edə bilirdilər.

## Yanğınsöndürənlər haqqında maraqlı məlumatlar

Yanğınsöndürənlərin uniforması 1200 °C-dək istiliyə dözümlüdür. Bu uniforma konsentratlı turşuları və alkalisləri hopdurmayan materialdan hazırlanır. Onun ağırlığı isə 5-30 kiloqram təşkil edir.

Yanğınsöndürənlər oksigen maskasından istifadə etdiyi üçün təhlükəsizlik qaydalarına əsasən üzlərində saqqalın və pirsinqlərin olması qəti qadağandır. Filmlərdə yanğınsöndürənlərin insanların səsini eşidərək, köməklərinə çatdığını görürük. Daha sonra onlar dərhal maskalarını çıxarır və zərərçəkmiş insana verir. Bu həqiqətdən uzaq bir haldır. Qatı buxardan dolayı onlar heç nə görmür, alovun səsi isə digər səsləri üstələyir. Maskanı çıxarmaq qəti qadağandır. Maskanı çıxardığı halda yanğınsöndürən boğula bilər.

XIX əsrin əvvəllərində Molly Villiams kişilərlə birlikdə yanğın söndürüb və tarixə ilk yanğınsöndürən qadın kimi düşüb. Bu hadisə qadın briqadalarının yaranmasına təkan olub.

Yanğınsöndürənlər yanğın söndürməklə yanaşı, həm də bir çox hadisələr zamanı köməyə gəlirlər — subasma, zəlzələ, terror aktları, heyvanlar dara düşdükdə və s. Bundan əlavə, onlar su təsisatçıları, elektrikçilər, mexaniklər, psixoloqlar və hətta tibb işçiləridir.

## Hansı ölkələrin işçiləri daha xoşbəxtdir?

İş yerindən məmnunluq duymaq hissinə təsir edən bir neçə amil mövcuddur, məsələn, şirkət ilə emosional bağlılıq, kollektivdə hökm sürən mühit və iş yerinin texniki cəhətdən təchizat səviyyəsi.

Edenred-Ipsos Barometrinin araşdırmasında dünyanın 15 ölkəsindən 14 000 nəfər iştirak edib. Ümumilikdə, sorğu iştirakçılarının 71%-i özünü iş yerində xoşbəxt hiss edir.

Araşdırmaçılar işdən məmnunluq və razılıq səviyyəsini 3 əsas cəhət üzrə qiymətləndiriblər: əmək şərtləri, tanınma və emosional məmnunluq.

Sahib olduğu işinə görə özünü xoşbəxt hiss edən insanların yaşadığı 10 ölkə və əməkdaşların məmnunluq faizi:

1.Hindistan – 88%
2.Meksika – 81%
3.Çili – 77%
4.Braziliya – 77%
5.Almaniya – 74%
6.Çin – 71%
7.Polşa – 70%
8.İspaniya – 68%
9.İtaliya – 63%
10.Yaponiya – 44%

## Qaqarin haqqında 12 maraqlı fakt

**1.** Qaqarinin idarə etdiyi "Vostok-1" kosmik gəmisi Yerin ətrafında saatda 27 min kilometr sürətlə dövr edib. Bu tarixi uçuş cəmi 108 dəqiqə davam etmişdi. Uçuşun ən pik nöqtəsi Yerdən 327 kilometr yüksəklikdə olub. Qaqarinin şifrəli ləqəbi "Kedr" olmuşdu.

**2.** Qaqarin tarixi uçuşunu yerinə yetirəndə cəmi 27 yaşı vardı. Sovet İttifaqının kosmosa göndərmək üçün seçdiyi 20 kosmonavtdan biri Qaqarin idi. Sonradan bu siyahıda yalnız iki nəfərin adı qaldı: Yuri Qaqarin və German Titov. Qaqarinin seçilməsinə səbəb onun daha sadə ailədən çıxması idi. Qaqarin fəhlə oğlu idi, Titov isə ziyalı ailəsində böyümüşdü.

**3.** Uçuşa çıxanda ilk dediyi söz bu olur: "Getdik…" («Poyexali») Sonra isə əlavə edir: "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün".

**4.** Qaqarin hər şeyin qaydasında olduğunu söyləyir. Ancaq bir az keçmiş problem yaşanır. Paraşütlə SSRİ torpaqlarına enir. Onu ilk görən ana ilə uşağı olur. Bu qəribə adamı görüb qorxurlar. Qaqarin isə onlardan mərkəzlə əlaqə qurmaq üçün telefon istəyir.

**5.** Uçuş uğurla başa çatmışdı. Xəbər Moskvada böyük sevinclə qarşılandı. Paraşütlə eniş isə gizli saxlanıldı.

**6.** Kosmos uçuşunun ustalıqla yerinə yetirilməsindən sonra Qaqarinə medallar, ordenlər verildi. Sovet İttifaqı Qəhrəmanı elan olundu. Hədiyyələrin arasında ipəkdən iç geyimləri və

corablar da vardı.

**7.** Qaqarinin qaşının üstündəki yara izi ilə bağlı bir sıra əfsanələr dolaşır. Həqiqət isə tamam başqadır. Qaqarin Anna adlı bir qadınla bərabər olduğu vaxt xanımının əlinə keçməmək üçün evin pəncərəsindən tullanır və həmin məşhur yara o zaman ortaya çıxır.

**8.** Onu sevənlər çox idi, ancaq getdikcə yüksələn nüfuzundan narahat olanlar da vardı. Qaqarinin nüfuzunun aşağı düşməsi üçün ona "alkaş" damğası da vurmuşdular.

**9.** Ölümündən sonra da bu iddia səslənirdi: kosmik gəmidən düşəndə içkiliymiş. Sonradan bu iddianın əsassız olduğu ortaya çıxdı.

**10.** Qaqarinin fərqli, qəribə bir insan olduğunu hər kəs söyləyir. Bir maraqlı fakt da var. Xruşovla görüşə gəldiyində rəsmi adamlar Qaqarinə baxıb təəccüblənirlər: ayaqqabısının ipi açılıbmış.

**11.** Kosmosa uçmadan iki gün əvvəl Qaqarin xanımına məktub yazır. Dəhşətli bir hadisə baş verdiyi təqdirdə bu məktubla Qaqarin xanımı ilə vidalaşacaqdı. Xanımı ərinin bu işin öhdəsindən gələcəyinə inandığı üçün məktubu açıb oxumur. 1968-ci ildə, uçuşdan 7 il sonra kosmonavtın xanımı Valentina İvanovna məktubu oxuyur. Həmin tarixdə MİG-15 təyyarəsində ilə sınaq uçuşunu reallaşdıran Qaqarin gözlərini əbədiyyən yummuşdu.

**12.** Qəzadan sonra hadisə yerində Qaqarinin gödəkcəsinin bir parçası tapılıb. Cibində isə ərzaq talonu, sürücülük vəsiqəsi, 40 rubl...

## Jan-Bedel Bokassa və onun özünəməxsus tacqoyma mərasimi

Mərkəzi Afrika Respublikasının prezidenti Jan-Bedel Bokassa 1966-cı ildə hakimiyyəti ələ keçirir. Növbəti il o ölkənin minlərlə vətəndaşını repressiyaya məruz qoyur, dantistləri qadağan edir və özünü dövlətin əbədi rəhbəri elan edir. Lakin bu ona azlıq təşkil edirdi.

Bokassa 1976-cı ildə özünü İmperator elan edir. Onun tacqoyma mərasiminin hazırlıqları 1 il tələb edir. Məraminin xərcləri isə milyard dolları geridə qoyurdu. Bu vəsaitin böyük bir

hissəsi isə əhalidən və əcnəbi şirkətlərdən müsadirə edilmişdi. Tacqoyma mərasiminə bütün ölkələrin rəhbərləri dəvət olunsalar da, onlardan heç biri gəlməmiş, bəziləri hətta öz səfirlərini belə göndərməmişdi.

4 dekabr 1976-cı ildə Bokassa İmperator I Bokasso oldu, Mərkəzi Afrika Respublikası isə Mərkəzi Afrika İmperiyası adını qazandı. İmperiya cəmi 3 ildən sonra öz mövcudluğunu dayandırmalı olur.

Bokassa Fransanın xüyusi təyinatlı qüvvələri tərəfindən devrilir. İmperator bütün dünyada elə də müsbət nüfuza malik deyildi və hətta hannibalizmdə şübhəli bilinirdi. Belə bir insanla dostluq etmək Fransanın nüfuzuna xələl gətirirdi. Uzun müddət Bokassanı dəstəkləyən prezident Valery Giscard d'Estaing son nəticədə çılğın və ekssentrik diktatortan canını qurtarmaq qərarına gəlir.

## Con Rokfellerin vərdiş və qəribəlikləri

8 iyul tarixində adı zənginlik sözünün sinonimınə çevrilən Con Rokfellerin 177 yaşı tamam oldu. O ilk dollar milyarderi və XIX əsrin sonunun, XX əsrin əvvəlinin ən varlı insanı idi. O öz uğur sirrini zəhmət çəkmək bacarığında, xərclərinin hesabatını aparmaqda və qənaət etmək vərdişində görürdü. Bəzən isə onun praktikliyi və qənaətcilliyi ağılasığmaz miqyaslara sahib olurdu.

Con Devison Rokfelle 1839-cu ildə Nyu-York ştatının Riçford şəhərində dünyaya gəlib. Conun atası özünü "Botanik həkim" adlandırırdı. Belə ki, o naməlum mənşəyə mənsub olan müxtəlif cövhərlər satırdı və bura "ölümsüzlük" içkiləri də daxil idi. Onu fırıldaqçı adlandırırdılar. Lakin o öz oğluna pullarla necə davranmalı olduğunu öyrətmişdi.

Con 7 yaşında satmaq üçün hinq quşu saxlayır və pul qarşılığında qonşular üçün kartof qazıb çıxarırdı. O qazandığı bütün pulları pul qabısında saxlayır, qeyd dəftərçəsində hesabat aparırdı. Gələcəyin milyarderi 13 yaşında tanış fermerə illik 7,5%-lə 50 dollar borc verir. Ailə başçısının biznesi sabit gəlir gətirməməyə başladıqda, anaları ailənin 6 övladına qənaət etməyi öyrədir. Con Rokfeller bu ifadəni təkrarlamağı sevirdi: "Mən bu prinsiplə böyümüşəm: işlə və qənaət et!".

Rokfeller kolleci sona qədər bitirmir: o belə hesab edir ki, 3 aylıq mühasibatlıq kursu ona bəs edir. 16 yaşından başlayaraq kiçik bir şirkətdə mühasib assistenti olaraq işləməyə başlayır və bu onun ilk və son maaşlı işi olur. Bundan sonra o öz tanışları ilə birgə şəxsi biznesi ilə məşğul olur. Onlar taxıl, ət, ot və digər məhsullar satmaqla məşğul olan "Klark və Roçester" ticarət evinin əsasını qoyurlar.

Tezliklə Rokfeller ondan kerosin istehsal etmək üçün neft axtarışlarına başlayır. Beləliklə

sahibini zənginləşdirən “Standard Oil” şirkətinin əsası qoyulur. Rokfellerin partnyoru Moris Klark deyirdi: “Con dünyada yalnızca iki şeyə inanırdı - kilsədə inama təlimə və neftə”. Varlanan Con digər neft şirkətlərini almağa başlayır. 1880-ci ildə Rokfeller Amerikada neft emalının 95%-nə nəzarət edirdi. Onun monopoliyasını “dahi, müdrik və bu günə qədər mövcud olan ən ədalətsiz” adlandırırdılar.

Con Rokfeller hələ təhsil alarkən tanış olduğu dindar bir qızla evlənir. Toy kifayət qədər sadə təşkil edilir, gənclər ucuz ailə mənzilində yerləşir və xidmətçilərdən imtina edirlər. Bu zaman Con artıq neft emal edən zavodun sahibi idi. Rokfeller öz övladlarını özünün tərbiyə edildiyi kimi tərbiyələndirirdi. O onlara qənaət etməyi öyrədir və pul qazanmağa icazə verirdi. Uşaqlar nahara gecikdikdə cərimə edilirdilər.

Rokfeller qidaya böyük əhəmiyyət verirdi, spirtli içki içmir, siqaret çəkmir, geyimə biganə yanaşır, nadir hallarda kostyumlarını dəyişir, teatr və klublara getmirdi. Onun sevimli yeməyi süd və çörək idi. Rokfellerin həyat yoldaşı isə yamaqlı paltarlarda gəzir və Rokfeller kimi qənaətcil idi. Rokfeller ona uşaqların hər birinə velosiped almağı təklif etdikdə o 4 uşağa 1 velosipedin bəs etdiyini və beləliklə onların paylaşmağı öyrənəcəklərini demişdi.

Con Rokfeller 100 milyon dollar qazanmağı və 100 yaşına qədər yaşamağı arzu edirdi. Onun ilk arzusu tez bir zamanda reallaşır. Belə ki, “Standard Oil” şirkəti hər il 3 milyon dollar qazandırırdı. Bundan əlavə, Rokfeller 16 dəmir yolu, 6 polad, 9 daşınmaz əmlakla məşğul olan şirkətə, həmçinin 9 paraxod şirkətinə, 9 banka və 3 apelsin ağacı sahəsinə sahib idi. Bu gün ki dollar məzənnəsi ilə hesabladıqda onun sərvəti 310 milyon dollar edir.

Rokfeller hər bir şeydə qənaət etmək vərdişinə sahib olmasına baxmayaraq, xeyriyyə məqsədilə külli miqdarda pul xərcləyirdi. Bu məqsədlə o tibbi araşdırmalara yatırım edir, universitet və muzeylərə sponsorluq edir, kilsələrə və icmalara ianə verirdi. Onun ikinci arzusu isə qismən olaraq reallaşır. O 97 yaşına qədər yaşayır.

## Əl gəzdirmək

Qədimdə ölən kamın (şamanın) əlinin ağacdan heykəli düzəldilir və kamın ailəsinin evində saxlanılırdı. Kam əli sehirli güclərə sahib hesab olunurdu.

Onun yolunu davam etdirmək istəyən ailən biri həmin əli özü ilə gəzdirib, kam olduğunu açıqlayardı. Əl gəzdirmə mərasimində insanlar o ələ hörmət edərdilər və həmin əli müqəddəs sayırdılar. Gənc kam da ilk mərasimlərə o əl ilə çıxardı.

"Əl vermək", "əl gəzdirmək" (ələmin ilkin forması), "əl öpmək", "əl tutmaq" kimi anlayışımızda yer alan ünsürlər kamlıq inancından qaynaqlanır.

Barmaqlar nədən xəbər verir?

Ana bətnində olan dölə həm qadın, həm də kişi hormonları təsir edir. Qadın orqanizmi az miqdarda olsa da kişi hormonlarını ifraz edir.

Ana bətnində olduğu zaman dölə kişi hormonu (testosteron) və ya qadın hormonları (estrogenlər) daha az və ya daha çox təsir edə bilər. Bu uşağın ana bətnində inkişafına, onun müxtəlif orqan və sistemlərinin formalaşmasına təsir edir. Uşaq doğulanda isə bu onun xasiyyətində və sağlamlığında özünü büruzə verir.

Araşdırmalar göstərib ki, ana bətnində olarkən testosteronun (kişi hormonu) təsiri daha çox olduqda doğulan körpədə şəhadət barmağı adsız barmaqdan daha qısa, estrogenlərin (qadın hormonları) təsiri daha çox olduqda şəhadət barmağı adsız barmaqdan daha uzun olur.

İndependent-in məlumatına görə, müxtəlif ölkələrdə aparılmış 200-dən artıq elmi araşdırma göstərib ki, barmaqların uzunluğu ilə bəzi xasiyyət və sağlamlıq göstəriciləri arasında əlaqə var.

Adsız barmaq şəhadət barmağından uzun olan insanlar (şəkildə A variantı) daha aqressiv olur, əksər hallarda öz məqsədlərinə çatır, daha çox pul qazanırlar. Uşaq vaxtı belə insanlar hiperaktiv olur və bu səbəbdən məktəbdə problemlərlə üzləşir. Lakin dəqiq elmlərdə (riyaziyyat, fizika və s.) onlar çox yaxşı nəticələr əldə edir. Bu qrup insanlar stressə daha davamlı olur, stress vəziyyətlərindən daha tez çıxır.

Adsız barmağı şəhadət barmağından qısa olan insanlar (şəkild\ b variantı) daha sülhsevər və sakit olur, konfliktlərdən qaçır, daha az pul qazanırlar. Bu insanlarda 1-ci qrup insanlarla müqayisədə ürək-damar sistemi xəstəliklərinə, depressiyalara daha tez-tez təsadüf edilir. Bu insanlar humanitar fənlərə (dillər, tarix və s.) daha çox meyil göstərir.

Zairləşdirmə

Jozef-Dezire Mobutu Konqo prezidenti olan kimi dərhal olaraq əcnəbi dilləri qadağan etdi. Dəqiqləşdirmək üçün qeyd edək ki, sözləri deyil, məhz əcnəbi dilin özünü qadağan etdi. Ölkə ərazisində fransız, ingilis və s. digər ənənəvi dillərdə danışmaq olmazdı. Elə bununla da “Zairləşdirmə” kursu, daha doğrusu öz köklərinə, yəni mənşəyinə geri dönmə prosesi başladı.

Zair adlandırılmağa başlayan Konqo da hər şey afrikansayağı görünüş almağa başladı. Buraya təbii olaraq geyim, davranışlar, qida da daxil idi. Fransız adlarına sahib olan ölkə

vətəndaşları adlarını yerli adlarla əvəz etməyə məcbur idilər.

Mobutu özü vətəndaşlara nümunə olmaq qərarına gəldi. Bu andan etibarən o Mobutu Sese Seko Kuku Nqbendu va za Banqa adlanmağa başladı ki, bu da tərcümədə "Dəmir iradəsi və dözümlülüyü sayəsində qələbədən qələbəyə gedən və yolunun üzərindəki hər kəsi məhv edən yenilməz savaşçı" mənasını verirdi.

Bundan əlavə, Zairdə kütləvi ad dəyişdirilməsi prosesi başlandı. Şəhər və qəsəbələrə, həmçinin digər obyektlərə yerli adlar qoyulmağa başlanıldı. Hətta Viktoriya gölü belə bu ad dəyişdirilməyə məruz qalır və göl prezidentin adı ilə oxşar Mobutu Sese Seko adlandırılır. Əlbəttə, gölə çıxışı olan digər ölkələr gölün adını dəyişmədilər.

1997-ci ildə Mobutu devrilir, zairləşdirmə isə dayandırılır. Hazırda ölkə Konqo Demokratik Respublikası, Viktoriya gölü isə hər yerdə olduğu kimi Viktoriya adlanır.

## Franz Leppich — macərapərəst yaxud dahi?

1811-ci ildə alman mexanik Franz Leppich fransız imperatoru Napoleonun qəbuluna düşməyə nail olur. Burada o Napoleona mərmiləri havaya qaldıraraq oradan düşmən üzərinə atmaq imkanı verən dirijablın yaradılması ideyasını təklif edir. Lakin mexanikin ideyası fransız imperatorunun marağına səbəb olmur və "səma fatehi" rədd cavabı alır. Lakin alman dahi öz planından imtina etmək niyyətində deyildi. Bu səbəbdən də ideyasını Ştutqartdakı rus səfirinə təklif edir. O da öz növbəsində dərhal olaraq I Aleksandra məktub göndərir. Bu dəfə Leppichin bəxti gətirir və tezliklə Rusiyaya getməsi üçün dəvət əldə edir.

1812-ci ilin may ayının sonlarında Leppich Moskvaya gəlib çatır. Onun buraya gəlişi gizli saxlanılırdı və hətta sənədlərdə ona Şmidt soyadı verilmişdi. Ona burada rahat işləməsi üçün emalatxana yaradılır və xüsusi mühafizə ilə təmin edilir. Qeyd edək ki, onun bu ideyasının həyata keçirilməsi üçün 150 işçi zəhmət çəkirdi.

Bu dirijabl xüsusi hazırlanmış "hava avarçəkənlərinin" köməkliyi ilə hərəkətə gətirilən qanadlar vasitəsilə uçmalı idi. İlk uçuş sınaqları 1812-ci ilin iyul ayının sonlarında həyata keçirilir. Dirijabl yerdən bir qədər yüksəyə qalxa bilmişdi. Lakin uğursuzluq avarların zəifliyi ilə izah edilmiş və daha güclülərinin yaradılması qərara alınmışdı. Bu zaman Napoleon ordusu artıq Moskvaya yaxınlaşırdı və emalatxana Nijni Novqorod ərazisinə köçürülür.

Leppichin özü isə Oranienbauma göndərilir və 1813-cü ilin sonuna qədər işlərini burada davam etdirir. Bu zaman qubernatorun onun uğuruna olan ümidləri puç olur və onu fırıldaqçı adlandırır. 1813-cü ildə ixtiraçı yeni qurğusunu cəmi bir neçə metr yüksəkliyə qaldıra bilir və havada onu idarə etmək çətin idi. Bu zaman dirijabla ehtiyac artıq lazım olmur, iş dayandırılır və Leppichin izləri silinir. Ola bilsin ixtiraçı kəşfi ilə zamanı

qabaqlamışdı. Ondan geri qalan isə ixtiranın həyata keçirilməsi üçün xərclənən 320 000 rubl qalır.

Joseph Weil - fırıldaqçıların "Robin Qud"-u

Bu məqalənin qəhrəmanı olan Joseph Weil bütün 100 illik boyu bir çox amerikalı yazıçı, ssenarist və fırıldaqçıların ilham mənbəyi olmuşdur. Ötən əsrin 20-ci illərində Çikaqo küçələrində baş verən bütün hadisələr qanun çərçivəsinə salınırdı. Adi qətllər və qarət halalrı şəhərin cinayət həyatının kiçik bir hissəsini təşkil edirdi. Spirtli içkilər ilə qanunsuz ticarət, qanunsuz qumar evləri və bordellər, həmçinin fırıldaqçılıq öz hökmranlıq dövrünü sürürdü. O dövrün fırıldaqçılıq üzrə kralı isə "Sarı oğlan" ləqəbli Joseph Weil idi.

O şəhərin küçələrində inanılmaz dərəcədə bahalı avtomobillərdə gəzir, qalstukunda brilyant olan dəbdəbəli kostyum geyinirdi. O bir fırıldaqçılıq əməlindən 10 mindən 500 min dollara qədər gəlir əldə edə bilirdi. Bununla yanaşı, o heç vaxt yoxsul insanları aldatmırdı və buna görə də fırıldaqçıların Robin Qud-u adlandırılırdı.

Joseph Weil 1875-ci ildə avropalı mühacir ailəsində dünyaya gəlmişdi və ailəsi ərzaq məhsulları satan mağazaya sahib idi. Joseph səhər saat 6-da yuxudan durmalı və bütün günü piştaxtanın arxasında ayaq üstə dayanmalı idi. O yalnızca məktəbə getmək üçün bir müddətlik mağazadan ayrılırdı. Bu kiçik oğlan üçün dözülməz idi və buna görə də bəzən üsyan edirdi. O bəzən məktəbdən mağazaya qayıtmaq əvəzinə hippodroma gedir, böyüklərin həyat tərzini müşahidə edirdi. Burada heç kəs işləmirdi, havada isə çoxlu sayda pul uçuşurdu.

Joseph Weil 17 yaşında təhsilini atır və bankda kollektor işinə düzəlir. Lakin bu fəaliyyət də ambisiyalı oğlanı qane etmir. Məsələ ondadır ki, o əyalətdəki ən gözəl və ağıllı qız ilə evlənməyə qərar verir. O qızı evə gətirdikdə anası onu kənara çəkərək demişdi: "Oğlum, bu qız sənin üçün kifayət qədər yaxşıdır. Belə bir qıza varlı ər lazımdır". Joseph Weil isə cavabında demişdi: "Mən onun almaq istədiyi hər bir şeyə kifayət qədər pul qazanacam və artıq da qalacaq". O bu sözləri əbəs yerə deməmişdi.

O tezliklə belə desək ona "həyata ikinci bilet" bəxş edən bir şəxslə tanış olur. Bu "dəri, mədə və digər xəstəliklər" üçün unikal dərman yaradan həkim Meriueyter idi. "Meriueyter məlhəmi" həkimin evinin zirzəmisində yerləşən nəhəng çəndə hazırlanırdı və bu məlhəm 95% yağış suyundan ibarət idi ki, onun da tərkibinə qarın işlədən təsir göstərən bitki kökü və dad üçün şirin likör daxil idi. Bu dərman əsas olaraq bağırsaq qurdları əleyhinə məlhəm kimi reklam edilirdi. Belə ki, bu zaman Çikaqo sakinlərinin əksəriyyəti bundan əziyyət çəkdiyini düşünürdülər, xüsusən də qadınlar. Rəngi ağaran, ürək bulanması hiss edən və mədəsində ağrı yaranan qadınlar qurdları lənətləməyə başlayır və "məşhur" həkimin hüzuruna qaçırdılar. Həkim Joseph-dən şəhət ətrafı səfərlər üçün istifadə edirdi. Belə ki, o burada saxta alıcı rolunu oynayırdı. O qəfil olaraq gəlib elan edirdi ki, bu möcüzəvi məlhəm sayəsində öz həyatını xilas edib.

Joseph Weil bir mövsüm ərzində həkim ilə bütün İllinois, Ayova və Viskonsin ştatlarını gəzir və evinə ailə həyatı qurmağa tam hazır varlı bir şəxs kimi geri dönür. Onun toyu isə yüksək Çikaqo standartlarına uyğun keçirilmişdi.

## Tarixi dəyişdirən 5 yuxu

Tarix boyu yuxular insanlara ilham vermiş, elmi kəşflərin, ixtiraların ilham mənbəyi olmuşdur. Xüsusən elm insanları arasında hər nə qədər bunu etiraf etmək istəməyənlər olsa da, kəşflərinin mənbəyini əvvəlki gecə gördüyü yuxudan götürənlər olduqca çox saydadır… Əslində bu batil bir inanc deyil, olduqca təbii bir proses.

Çünki yuxular bizə bilmədiyimiz bir məlumatın göydən enməsini təmin etmir, əksinə bəlkə də uzun zamandır beynimizdə dönüb duran bir düşüncənin yerini tapmasına yardımçı olur. Nəticədə çox güclü havadarları var: Bütün düşüncəmiz onların əmrində!

### Frankenstein əsl kabus

Yuxu deyil də kabus deyək, ancaq əsas fikir eyni: 1816-ci ildə Mari Shelley, Frankenstein romanının əsas fikrini yuxuda gördü. Cenevrə Gölü sahilində Lord Bayronu səfər edən Shelley, əvvəlki il Tambora yanardağıın partlamış olması səbəbindən yaz mövsümünə heç bənzəməyən bir dövrü bu evdə, soyuqdan çölə çıxmadan, odun ətrafında keçirdi. Bu arada Lord Bayron hər kəsin bir kabus hekayə yazmasını təklif edib, Shelley isə heç bir şey düşünmürdü, ta ki «bir cəsədə yenidən həyat verilməsi» fikri ağlına gələnə qədər! Yuxuya gedəndə, sonradan romanda yer verəcəyi, Frankenstein-in canlanması anını gördü və beləcə ilk elmi fantastika romanının əsasları bir kabus zamanı atılmış oldu.
1816-ci ildə Mari Shelley, Frankenstein romanının əsas fikrini yuxuda gördü.

### Pol Mccartneynin dünən gördüyü yuxu

The Beatles qrupunun dünya şöhrətli və köhnəlməyən mahnısı Yesterdayin bəstəsi əvvəldən axıra, Paul Mccartneynin bir yuxusundan çıxdı. Mccartney 1965-ci ildə bir səhər ağlında bir bəstə ilə oyandı və dərhal pianonun başına keçib ailəsinə və dostlarına bu mahnı bir yerlərdə eşidib eşitmədiklərini soruşdu. Məlum, daha əvvəl eşitdiyi bir melodiya təkrarlayır da ola bilərdi, Bu həqiqətən bir neçə həftə ərzində davam edib, sonda Mccartney mahnının özünün olduğuna əmin oldu və Con Lennon ilə birlikdə sözlərini yazdılar. Nəticə ortada.

### Niels Bohrun başının ətrafında fırlanan elektronlar

Kvant mexanikanın atası sayılan Niels Bohr, atomun quruluşu üzərində baş sındırdığı bir gecə yuxusunda atom nüvəsi və ətrafında dönən elektronları gördü. O ana qədər atomun quruluşu ilə bağlı proqnozları tutmayan Bohr, planetlərin ətrafında fırlandığı Günəş misalı atom nüvəsini görəndə, artıq nəyin arxasınca getməsi lazım olduğunu bilirdi. Beləliklə, həqiqət olduğunu hiss etdiyi bu fərziyyə dəstəkləyən dəlilləri tapmaq kimi, hədəfə doğru işləməyə davam edib. Fizika üzrə Nobel Mükafatına da beləcə qovuşmuş oldu.

**Otto Loewi və yuxusuz sinir hüceyrələri**

Alman əsilli farmakoloq Otto Loewi isə, sinir hüceyrələrində siqnal çatdırılması elektrik deyil, kimyəvi olduğunu yuxusunda görmüşdür. Yuxusunun arasında bu kəşfi bir kənara qeyd edib təkrar yuxuya dalan Loewinin, səhər durub öz yazdıqlarını oxu bilmədikdə hiss etdiyi panikanı təxmin etmək çətin deyil. Yuxunu xatırlamağa çalışaraq keçirdiyi ertəsi gün onun həyatının ən uzun günü olduğunu deyən Loewi, buna nail ola bilmədi amma, ertəsi gün də eyni yuxu gördü. Bu dəfə işi şansa buraxmayan elm adamı, özünü Nobel çatdıracaq görüşü bu dəfə düzgün bir şəkildə kağıza tökdü.

Otto Loewi, sinir hüceyrələrində siqnal çatdırılması elektrik deyil, kimyəvi olduğunu yuxusunda gördü.

**Dağdan işıq sürətilə sürüşən Eynşteyn**

Albert Eynşteyn, bir gecə yuxusunda özünü bir dağdan aşağıya demək olar ki, işıq sürətilə sürüşdüyünü bildirmişdir. Elə sürətli sürüşmək ki, ətrafındakı ulduzlar haradasa görünüş dəyişdirirdi. Oyandıqdan sonra bu yuxu üzərində xeyli baş sındıran Eynşteyn, bu sayədə relyativistik mexanika nəzəriyyəni inkişaf etdirdiyini etiraf etməkdən də çəkinməmişdir.

Simurq quşu nəyin simvoludur?

Simurq quşu qədim əsatirlərdə Qaf dağında yaşayan böyük bir quş kimi təsvir edilir. Azərbaycan nağıllarında istifadə olunan personajlarından biri də Simurq quşudur.

Rəvayətə görə, Simurq quşu sevdiyi insanlara, köməyə ehtiyacı olan günahsız bəndələrə öz lələklərindən verər, onlara bir çətinliyə düşəndə bu lələkləri yandırıb onu köməyə çağırmalarını tapşırarmış.

Məşhur nağıl qəhrəmanımız olan Məlikməmməd obrazının da əsas yardımçısı məhz Simurq quşu olub. Çətinə düşən Məlikməmmədi qaranlıq dünyadan işıqlı dünyaya çıxardıb.

Simurq — Azərbaycan mifologiyasında xeyirxahlığın, yeni həyatın və dirçəlişin qədim rəmzidir. İnsanları qaranlıqdan işığa çıxaran obraz kimi təsvir edilir.

Bir əfsanəyə görə ilk dəfə məhz həmin quş göydən, yaxud müqəddəs dağdan yer üzünə «həyat ağacının» kökünü gətirib. Simurq quşu bəzi mənbələrdə ilahi gözəlliyin simvolu kimi də təsvir olunur.

Əttar özünün «Məntiquttəyr» («Quşların dili») kitabında simurq quşu barədə maraqlı hekayə nəql edir: «Günlərin bir günü quşlar şanapipiyin rəhbərliyilə Qaf dağına səfərə

çıxırlarlar. Burada hər növdən olan quş müəyyən sifət və dəstəyə aid olan insanlar kimi təsvir olunur. Yolda çətinlik və maneələr quşları taqətdən salır və onların çoxu yola davam edə bilmir. Şanapipik arxaya baxıb yüzlərlə quşdan cəmi otuzunun qaldığını görür və onları ruhlandırmaq üçün Simurqun onları həsrətlə gözlədiyini bildirir. Beləcə, dağın başına otuz quş çıxa bilir. Lakin orada Simurqu görə bilməyib təəccüblə şanapipikdən onun harada olduğunu soruşurlar. Şanapipik onlara deyir: „Bir sayınıza nəzər salın, simurq elə özünüzsünüz. Quşlar saylarının doğrudan da otuz olduğunu görürlər.“ (Si-fars dilində otuz, Murq-quş mənasını verir).

Əttar bu hekayəni yazmaqla əslində, iradəli insanların qarşısına çıxan çətinliklərə sinə gərib hədəfə çatmalarından söz açmaq istəyir.

## Bütün dövrlərin ən qaniçən qatili

Bütün dövrlərin ən qəddar və qaniçən insanı qadın olub! Qətllər ona inanılmaz zövq qazandırırdı. Bu qadın yüzlərlə insanı birbaşa olaraq, öz əli ilə qətlə yetirmiş və "Ən məşhur ardıcıl qətllər törədən qatil" olaraq Ginnesin rekordlar kitabına daxil edilmişdir. Bu qadının adı isə qrafinya Yelizaveta Batori (1560-1614) idi.

O uşaqlıqdan epilepsiya xəstəliyindən əziyyət çəkirdi. Bununla yanaşı, öz ağlı, üç dil bilməsi ilə seçilirdi. O Macarıstanın ən təhsilli gəlinlərindən biri idi. Yelizaveta hələ uşaq olarkən qulluqçusunu yarı can hala salana qədər döymüşdü. Hər şeylə maraqlanan Yelizaveta böyüdükdə "bunun böyük insanlarla necə baş verdiyini" yoxlamaq qərarına gəlir.

O 14 yaşında lakeydən uşaq dünyaya gətirir. Lakin tezliklə lakey və uşaq izsiz şəkildə yoxa çıxır, "rüsvay olmuş" Yelizavetanı isə tez bir zamanda əsirlərin qəddar şəkildə edam edilməsi üzrə məşhur olan general Ferençə ərə verirlər.

Generalın həyat yoldaşı olan Yelizaveta ailə həyatının elə ilk günündən öz qulluqçularına işgəncə verməyə başlayır. Bununla yanaşı, o işgəncə üçün yalnızca gənc qızları seçirdi. Ola bilsin ki, Yelizaveta onların gözəlliklərinə həsəd aparırdı. Çünki bəzi araşdırmalar onun qeyri-ənənəvi cinsi orientasiyaya sahib olduğunu sübut edir.

Yelizavetanın istifadə etdiyi işgəncə üsulları isə dırnağın altına, dodaqların kənarına və sinəyə mismar çalmaq idi. Yayda isə o bala batırdığı gənc qızları qarışqalara yem edirdi. General Ferenç də öz qəddarlığı ilə ad qazansa da, hətta o belə ilk başda həyat yoldaşını bu dəhşətləri dayandırmasına çalışırdı. Lakin Yelizaveta həyat yoldaşı ilə dil tapmağı bacarır və artıq onlar bu işgəncələri birlikdə etməyə başlayırlar. Bu onların ümumi zövqü idi.

Bir dəfə Yelizaveta öz qulluqçusunun üzünə zərbə endirdikdə onun burnundan qan açılır və damcı Yelizavetanın dərisinin üzərinə düşür. Bir müddət keçdikdən sonra o, qan damcısının düşdüyü yerin cavanlaşdığını "aşkar edir". Bu andan etibarən qrafinya işgəncə ilə qətlə yetirdiyi gənc qızların qanı ilə duş vannası qəbul etməyə başlayır. Bunun üçün isə o yeni

işgəncə üsulu kəşf etməli olur. Onun qəsrinin zirzəmisində müasir meyvə sıxacaqlarına analoji işgəncə aləti yaradılmışdı. Bu sıxacaqlardan qan birbaşa olaraq qrafinyanın vannasına gəlib tökülürdü. Onun canını aldığı 650 qurban qrafinyanı "bütün dövrlərin ən qaniçən ardıcıl qətl törədən qatili" adını almasına və Ginnesin rekordlar kitabına daxil olmasına səbəb olub.

## İki dəfə edam edilən şəxs

Villi Frensis (12 yanvar 1929 - 9 may 1947-ci il) - amerikalı qatil idi. O 1945-ci ildə (16 yaşında) Luiziana ştatında elektrikli stul ilə ölüm cəzasına məhkum edilmiş yeniyetmə, qaradərili cinayətkar idi. Onun başına gəlmiş hadisə elektrikli stulda edam cəzasının baş tutmadığı ilk hadisə idi. Lakin ölüm cəzası ikinci cəhd ilə həyata keçirilir. Bu cəhd vəkil Vertrand DeBlankın etirazına səbəb olur. Belə ki, vəkil bu qəddar və qeyri-adi cəza növünü 8-ci düzəlişin pozulması hesab edirdi.

3 may 1946-cı ildə Villi Frensisi elektrikli stula bağlayırlar. O işə düşdükdə Villi qışqırır: "Söndürün onu, mən qızarıram". Onu cəld bir şəkildə stuldan ayırırlar və ölüm cəzasına məhkum edilmiş məhbusların olduğu kameraya göndərirlər. Stul isə yoxlanışa göndərilir. Rəsmi məlumata görə, stulda naqillərdən biri sıradan çıxıbmış. Belə olduqda, cinayətkarın vəkili Vertran De Blank Frensinin layiq görüldüyü ölüm cəzasının ömürlük həbs cəzası ilə əvəz edilməsinə nail olmağa çalışır.

O ştat komissiyasına əfv qərarı ilə müraciət edir və iddia edir ki, ölüm cəzasını həyata keçirən türmə əməkdaşları işi icra edən zaman sərxoş idilər və Villiyə təhdid edirdilər. Lakin əfv komissiyası bunu cəza növünün dəyişdirilməsi üçün tutarlı səbəb hesab etmir və ölüm cəzası qüvvədə qalır.

9 may 1947-ci ildə, 13:00 və 14:00 arası Villi Frensis uğurlu şəkildə edam edilir.

## Xeyirxah milyarder

Olav Thon 90 yaşlı norçevli milyarderdir. Forbes jurnalının məlumatlarına əsasən onun sərvəti 6 milyard dollar təşkil edir və özünün bütün sərvətini tibbi araşdırmaları maliyyələşdirməyə xərcləməyə qərar verib.

Bundan belə başa düşülməməlidir ki, Olav Thon-un sağlamlığı ilə hər hansı bir problemi

var. Xeyr. O sağlamlığı ilə problemlərinin olmaması üçün demək olar ki, bütün Norveçi ya piyada, ya da xizək ilə gəzib. Sadəcə o belə bir qərara gəlib ki, ömrü boyu qazandığı pulları xeyriyyə məqsədilə xərcləsin. O bildirmişdir: “Onsuzda mən onları özüm ilə apara bilməyəcəm”.

Bu yaşlı və xeyirxah milyarder öz sərvətini son qəpiyinə qədər özü qazanıb. O kənddə böyüyüb və öz biznesini tülkü dərisi ilə ticarətlə başlayıb. Daha sonradan isə otel və restoran işinə qoşulur. Hazırda isə onun şirkətinə 450-dən çox obyekt daxildir.

Sahib olduğu böyük sərvətə baxmayaraq, Olav Thon Oslo-nun şəhər ətrafında yaşayır və əyləncələrdən yalnızca təmiz havada gəzintiyə üstünlük verir. O evli olsa da, onun birbaşa varisləri yoxdur. Bu səbəbdən də o rahatlıqla bütün sərvətini tibbi araşdırmaları maliyyələşdirməyə verməyə hazırdır. Bununla yanaşı o özünə çox cuzi məbləğ saxlayır. O deyir: “Mənim velosiped və xizəyim var, yeməyi isə çox az yeyirəm. Buna görə də, düşünürəm ki, hər şey yaxşı olacaq”.

## Adrian Lamo - bir xakerin tarixçəsi

Hazırda söhbət açacağımız şəxsi Amerikada bir çoxları tanıyır: federal marşallar, FTB və polis onu axtardığı bir vaxtda o NBC, CNN kanallarının canlı efirində çıxış etməyə cürət etmiş, 32 yaşına baxmayaraq AOL, AOL, Yahoo, Microsoft, Excite@Home, AT&T Telecom, MCI WorldCom, Intel, Bank of America, CityBank, Cisco, Google və bir sıra məşhur şirkətlərin şəbəkələrini sındırmağı bacarıb.

Bu məqalədə isə məşhur xaker haqqında bir sıra maraqlı faktları təqdim edəcəyik:

Adrian Lamo dünyanın bəlkə də yeganə evsiz xakeridir. O adətən atılmış binalarda, isti havalada park skamyalarının üzərində, soyuq havalarda isə gənclərin yığıncaqlarında gecələyir. İnternetə isə internet kafe, bar və pulsuz simsiz internetin olduğu yerlərdən daxil olur. O demişdir: “Ömrüm boyu internet üçün 1 qəpik belə olsun ödəməmişəm”. Təhsili isə faydasız hesab etdiyindən uzun müddətdir ki, tərk edib və o zamandan etibarən bir yerdə uzun müddət qalmayaraq bütün Amerikanı gəzir.

Lamo-nun hər hansı bir şirkətin qapalı internet şəbəkəsinə daxil olması üçün adi brauzerdən istifadə etməsi kifayətdir. Heç bir əlavə xaker proqramından istifadə etməmək onun əsas xüsusiyyətidir.

Adrian Lamo 2002-ci ildə bir nəhəng saytın xakerlər tərəfindəən sındırılması ilə bağlı ekspert qismində NBC Nightly News verilişinə dəvət edilmişdi. Aparıcının “NBC telekanalının şəbəkəsinə daxil ola bilərmisiniz?” zarafat tipli sualına cavab olaraq Adrian Lamo öz noutbukunu açmış və cəmi 5 dəqiqə ərzində şəbəkəyə daxil olmuşdu.

Onun 23 yaşı olduqda The New York Time qəzetinin internet şəbəkəsindəki boşluqlardan

istifadə edərək cəmi 5 dəqiqəyə ona giriş əldə edir. Bundan əlavə, şəbəkənin məlumat bazasına daxil olmaq üçün ona əlavə 1 saat da lazım olur. Hər zaman olduğu kimi o qəzet rəhbərliyinə şəbəkədəki boşluğu xəbər verir və bunu düzəltmək lazım olduğunu bildirir. Rəhbərlik isə öz növbəsində bir xaker tərəfindən verilən məsləhəti böyük heyrət və təəccüblə qarşılayır və onun kim olduğunu soruşurlar.

Belə olduqda qəzet rəhbərliyini inandırmaq üçün o geri dönür və məlumat bazasında öz məlumatlarını IT təhlükəsizlik üzrə mütəxəssis olaraq qeyd edir. O yenidən administratorlara məktub göndərir və bu zaman onların IT avtoritetlərinin məlumatlarından qaynaqlanan rezümesini yollayır. O məktuba ABŞ-ın keçmiş prezidenti Cim Karterin mobil nömrəsini də əlavə edir. Bu məlumatı isə yalnızca Amerikanın VIP şəxslərinin kontaktlarının olduğu bazadan əldə etmək mümkündür.

Bu dəfə artıq ona inanırlar. Lakin hadisələr heç də Adrian Lamo-nun xeyrinə olmur. Belə ki, qəzet rəhbərliyi FTB-na rəsmi şəkildə müraciət etmişdi. O məlumat bazasına qanunsuz daxil olmaqda, 3000-dən çox Hollywood ulduzunun, məşhur aktyorların, musiqiçilərin, siyasi liderlərin, idmançıların, biznesmenlərin, teleaparıcıların, modellərin və həmçinin Amerikanın məşhur jurnalist və yazıçıların telefon nömrələrini əldə etməkdə təqsirli bilinmişdi.

## Beyinləri idarə edən şəxs

Volf Messinq bütün dünyada şüurlara təsir edən və onları istədiyi kimi idarə edə bilən bir insan kimi məşhurdur. Müharibə zamanı Messinq həbsxanaya düşür və əgər bu qeyri-adi qabiliyyətə sahib olmasaydı hər şey onun üçün pis nəticələnəcəkdi. Lakin o həbsxana gözətçilərinin birbaşa olaraq şüurlarına təsir edir və təlqinlə qapını onlara açdıraraq onları içəri salır. Qaldığı hücrənin qapısını isə arxadan bağlayaraq azad olur.

Volf Messinqə öz imkanlarını inkişaf etdirməyə kömək edən şəxs berlinli psixiatr Abel olub. Küçədən tapılan uşağın ürək döyüntüləri yox idi. Bu səbəbdən də onu morqa yerləşdirirlər. Uşaq burada 3 gün qaldıqdan sonra bir tibb tələbəsi meyiti yarmaq üçün hazırladıqda onda ürək döyüntülərini aşkar edir. Abel heyrətdən donub qalmışdı. O Messinqə izah edirdi ki, onun orqanizmi öz gücünü saxlayaraq katalepsiyaya düşür.

Və Volf bunu istədiyi an edə bilərdi. Beləliklə Messinqin “səhnə” fəaliyyəti başlayır. O sirklərdə “meyit” rolunu oynayırdı. O böyük kütlə qarşısında öz ölümünü, sonradan isə dirilməsini nümayiş etdirirdi. Zamanla o başa düşür ki, başqa insanların fikirlərini eşitməyi bacarır. O öz çıxışları ilə Avropa və Cənubi Amerikanı gəzmişdi.

Stalin Messinqə etibar etməyə və onunla işləməyə başlamamışdan öncə onu sınamaq qərarına gəlir. Messinqə Dövlət bankına getmək və hər hansı bir sənəd olmadan iri həcmli bir məbləği əldə etməsi tapşırılır. Onu iki zabit də müşayiət edirdi. Volf öz cib

dəftərçəsindən bir vərəq cırır və zabitlərə göstərir. Daha sonradan isə vərəqi kassirə verir. Kassir isə diqqətlə boş vərəqə baxır və ciddi şəkildə digər sənədlərin içərisinə qoyduqdan sonra Volf Messinqə 100 min rubl təqdim edir. Messinq zabitlərin yanına qayıdır və pulları onlara göstərir.

Lakin bu Stalini qane etmir. O Messinqə Kremldəki kabinetinə icazəsiz daxil olmağı tapşırır. Bununla yanaşı qapıdakı gözətçilərə ciddi şəkildə onu içəri buraxmamaq tapşırılır. Ekstrasens bu yeni tapşırığın öhdəsindən də asanlıqla gəlir. O tək içəri girməklə kifayətlənmir və içəri girdikdə Stalinə əli ilə salam da verir.

Messinq gənc olarkən Eynşteyn və Ziqmund Freyd ilə də görüşmüşdü. O öz bacarıqları ilə bu iki dahini də heytələndirmişdi.

## Katana – Samuray qılıncı

Tapança gülləsini ortadan ikiyə böləcək qədər kəskin və davamlı, eyni zamanda bir saç telini ortadan ikiyə böləcək qədər də həssas olan bu qılınc bəlkə də Yapon xalqının dünyaya verdiyi ən möhtəşəm əsərlərdən biridir. Tarixi 10-cu əsr və əvvələ söykənən bu qılınc, Yapon xalqını iftixar, ruhani güc və itaətkarlıqla təmsil etmiş ancaq bir çox insanın qorxulu yuxusu olmuşdur. Tək bir həmlədə insan bədənini ortadan ikiyə ayıran bu qılıncın istehsalı günümüzdə çox az həcmdə aparılır və qiymətləri beş min dollar ilə əlli min dollar arasında dəyişir.

Dünyanın ən iti qılıncı adına sahibdir. Amma Katana qılıncı ilə birlikdə Avropanın düz ağızlı qılıncı da bu yarışın içərisindədir. İki qılıncı müqayisə etdikdə, şübhəsiz, Katana bu yarışı qazanacaq xüsusiyyətdə tək qılıncdır. Tarixə baxanda çox mənbə Yaponların, Avropanın düz ağızlı qılıncını məsxərə etdiklərini yazır. Şayiələrə görə Katana zenit gülləsini və dəmiri asanlıqla ortadan ikiyə ayıra bilir. Bu şayiə çoxumuza məntiqsiz gəlsə də qılıncın hazırlıq mərhələsini oxuduqca nə qədər əmək sərf edildiyini və incə bir sənətkarlıqla hazırlandığını öyrənib fikirləriniz dəyişəcəkdir. İndi Katana (Samuray Qılıncı) və tarixini araşdıraq.

### Yapon qılınc sənəti

Gerçək SamuraylarKatana, 10-cu əsrdə də Yaponiyada yapon döyüşçülərin feodallara qarşı xidmətləri nəticəsində ortaya çıxmış bir qılıncdır. Yalnız samuraylara verilir və samuraylar, Zadəganlar (soylu adamlar) arasından seçilirdi. Təhsilləri uzun illər davam edən Samuraylar üçün qılıncları ruhani bir güc, qürur və şərəf mənasına gəlirdi.

Xarakiri (Seppuku) deyilən bir proses var ki, bu samurayın özünü intihara bilərək və istəyərək aparması idi. Bir samurayın ağasının ölümü, müharibədə məğlubiyyət və Yapon cəmiyyətdə xoş qarşılanmayan səhvləri, bu kimi hallar samurayın Xarakiri etməsi ilə bitərdi. Samuraylar, nəzarətçilərin müşaiəti və dini bir ayinlə Xarakiri edirdilər. Samurayın ölümü şərəfli olub bir bıçaq vasitəsilə qarnını xaç şəklində deşilməsi ilə həyata keçirilərdi. Xarakiri söz mənası olaraq da «qarın deşmək» mənasına gəlir.

Edo Dövründə təkcə Samuraylar qılınc istifadə edir və qılıncdan istifadə edən kəndlilər

öldürülürdü. Qılınc ilk hazırlandığı vaxtlarda qılıncın itiliyini sınamaq məqsədli günahkarların günah dərəcələrinə görə ya əli, ya ayağı və ya boynu vurulurdu. Bir samuray, düşmənlə döyüşərkən ilk olaraq yay, nizə və ən son Katana qılıncından istifadə edirdi. Katana istifadə etmək düşməninə «səni öldürmək istəyirəm» demək idi.

Katana qıvraqlıq və çeviklik istəyən bir qılınc olub sürətli və qəti ölüm gətirən bir silah hesab olunurdu. Kaşima Məbədində hazırlanan qılınclar bir müddət sonra Yaponiyanın hər yerinə yayılmış və inkişaf etdirilmişdir. Daha sonra Yaponiyada çıxan vətəndaş müharibəsi, qılıncların etibarlarını və nüfuzlarını itirmələrinə səbəb olmuşdur. Bir anda yaranan silahlanma ehtiyacı ilə bəsit hazırlanan qılınclar düzəldilmişdir. Bir ara piratları əngəlləmək üçün Ming Xanədanına yüz mindən artıq qılınc satılmışdır. Zamanla inkişaf edən texnologiyalarla Samuraylar odlu silahlarla qarşılaşmış və bu onlara çox zərər vermişdir. Sülh vaxtı gələndə yenə də qılınc üçün yeni layihələr və formullar hazırlanmış və o dövrlərin gəlmiş keçmiş ən yaxşı qılıncları sülh dövründə, yəni Momoyama dövründə hazırlanmışdır. Zamanla qədim qılınclar təsirini itirdikdə bu qılınclara Şinto, daha qədimlərə Koto (Qədim qılınclar) deyilmişdir. Amma bir dövr var ki, bu dövrdə Yaponiyada çox uzun illər heç kəs odlu silah görməmişdir. O dövrün güclüləri barıt və odlu silahları qadağan etmişlər. Bu dövr 18-ci əsrin tamamı kimi bilinir. 19-cu əsrin əvvəllərində təkrar səs salan qılınc istehsalı qədim qılıncların necə düzəldilyinin öyrənilməsi ilə təkrar köhnə əhəmiyyətini qazanmışdır. Bu dövrdə düzəldilən qılınclara Şinşinto (yeni) adını vermişlər.

19-cu əsrin sonlarına gələndə artıq Yaponiya xarici aləmlə tanış olmuş və Meydzi İnqilabının başlaması ilə birlikdə Yaponiya böyük bir texnologiyaya sahib olmuşdur. 20-ci əsrə gəldiyimiz zaman yeni qılınclar istehsal olunmuşdur. Gunto adı verilən bu qılınclar keyfiyyətsiz olub seriya nömrəli qılınclardır. Bir müddət sonra Samuraylar xaricində hər kəs Katana istifadə etməyə başlayanda polis də katana istifadə etmək məcburiyyətində qalmışdır.

Standart poladdan düzəldilən metal relyefləri olan saplı «sukara» ya oxşar bir qılınc kimi istehsal edilmişdir. Gassan Sadakazu və Gassan Sadakatsu adlı ustalar bu dövrdə ən yaxşı qılıncları hazırlamış və möhtəşəm şagirdlər yetişdirmişlər. 1934-ci ildə Yaponiya, ordusunu Şin-Gunto (Yeni Ordu Qılıncı) ilə təchiz olunmuşdur. Bu illərdə (Şəkil: Kantana 94) Katana və bir çox əl işi Şinto düzəldilmiş və 2-ci dünya müharibəsində istifadə edilmişdir. ABŞ işğalı sonrasında Katana istehsalı qadağan olunmuş və gerçək Katana istehsal etmək ancaq polis icazəsi ilə mümkün ola bilmişdir. Daha sonra bir neçə dəyərli ustanın səlahiyyətli şəxslərlə apardığı danışıqlar nəticəsində Gunto sinfi məhv edilərək təkrar dəyərli və həqiqi olan kəskin Katana istehsal edilməyə davam etdirilmişdir. Bu istehsal artıq hər kəsin Katana sahibi olmasına imkan verib və bu səbəbdən çox ucuz satılan Katana qılınclarının bir çoxu oğurlanmışdır. 1958-də ordulara baxdığımızda Yapon silahlarının bir çoxu (Gunto, Katana, Konto, Şinto, Şinşinto) müharibə sonrası ABŞ əsgərlərinin əlinə keçmişdir. Daha sonra qılınclar toplanaraq nəzarətə götürülmüşdür.

### Katana qılıncının xüsusiyyətləri

Katana 60 sm-dən uzun bir Yapon silahıdır. Digər bir növü olana «Tachi» isə Katana qılıncından daha uzundur və kəskin qismi yuxarıdadır. Katana qılıncından daha çətin bir sənətkarlığı olmasına baxmayaraq Katana qılıncı qədər yaxşı deyil. Bir də «vakizaşi» deyilən Katana qılıncından daha qısa, ən uzunu 50 sm olan bir qılınc var. Bu qılınc Katana

qılıncının alternativi keyfiyyətindədir. Bir samuray əgər ki, Katana qılıncını istifadə edəcək vəziyyətdə deyilsə Vakizaşiyi istifadə edərdi. Samuray bu qılıncı yan tərəfindəki qınında daşıyardı. Hazırda Yaponiyanın Cənub-qərbindəki bəzi yerlərdə Katana istehsalı üçün mükəmməl cövhərlər var. «Tatara» adı verilən son ənənəvi sobada, «Akira» adındakı son tatara ustası ixtisasını hələ də davam etdirir

## Katana qılıncının hazırlıq mərhələləri

İndi bu mükəmməl qılıncın istehsal mərhələlərindən qısaca bəhs edək. Odun kömürü, karbon və dəmir qumu birləşdirilir. İçərisində olan bu tünd maddələr 3 gün 3 gecə əridilir. 36 saat ərzində 26 ton saf dəmir və odun istifadə edilir. Məqsəd isə «tamagahane» deyilən dəmiri ortaya çıxarmaqdır. 1000 selsidə qızdırıldıqda sərt və yumşaq dəmir metal şəklini alır. Bu qılıncın karbon tarazlığını təmin etmək üçün eyni miqdarda karbon yayılır. İki metal element olan saf polad və saf dəmirdən hazırlanır. Saf dəmir kəskin bir uc üçün istifadə edilməyəcəyi üçün saf polad qılıncın ucu üçün istifadə edilir. İçərisində olan sulfid, dəmir və karbon qarışığı qılınca elastiklik və sərtlik verir. Qılıncı hazırlanmağa başlamazdan əvvəl dualar edilir. 3 aydan çox davam edən bu qılınc hazırlanarkən dəmir parçaları odda əridilir və paslanmaması üçün nəmli kağız parçasının üzərinə yerləşdirilib sonra kağızın üzərinə gil və kül sürtülür. Buradakı məqsəd paslanma və kəskinliyini itirməsinə mane olmaqdır. Qatlama prosesi dediyimiz prosesdə üst-üstə qoyulan dəmirlər qatlanaraq bir çox dəfə döyülür və ardıcıl «buda cihada» adı verilən qılıncın xarici hissələrini ərsəyə gətirir. Sonra gil-kömür qarışığı səth hissəsinə sürtülür.

Katana qılıncının nə keyfiyyətdə olduğunu öyrənməyin vaxtı çatmışdır. Katana, orta səviyyədə bir alovda bir dəqiqə kimi bir müddətdə saxlanılır və dərhal suya batırılır. Sonra kənarına sürtülən kül və gil qarışığı ucda daha incə və ortada daha qalındır. Bunun səbəbi incə sürtülən hissə daha çevik olmalı və qalın hissə daha sərt olmalıdır. Son mərhələ lakdır. Hər bir Katana üçün xüsusi daşlar mövcuddur. 10 gün müddətin lak əməliyyatından sonra ən çətin və ən riskli lak olan «jizuya daşı» istifadə edilir. Bu daş düyü dənələri kimidir. Ən son olaraq uc hissədə ağarma prosesi həyata keçirilir və katana qılıncı tamamlanmış olur.

## Edam edilən fil Mary

Mary adlı fil tarixin ilk asılaraq edam edilən filidir.
13 Sentyabr 1916-da Amerika Birləşmiş Ştatlarının Tennessi Ştatında, Erwin qəsəbəsində bir sirkdə nümayiş etdirilən Mary adlı fil, baxıcısının onu qəzəbləndirilməsi nəticəsində baxıcısına hücum etmiş və baxıcısını öldürmüşdü.

Charlie Sparksın səyahət edən bir sirki vardı və Mary adlı bu fil sirkdə ən çox nümayiş etdirilən heyvan idi. Demək olar ki, Mary olmadan hər hansı bir nömrənin nümayişi mümükün deyildi. 1916-ci ilin soyuq bir Fevral ayında, Marynin hər zamankı baxıcısı yox idi və ona təcrübəsiz bir baxıcı təyin etmək məcburiyyətində qalındı. Çünki 5 tonluq bir Asiya fili olan Mary, şounun ən əvvəl oyunçularından biri idi.

Təcrübəsiz baxıcı Maryni təşviq etmək istəyərkən onu şüursuz şəkildə yaralayır. Ağrılar

içərisində qalan fil, qəzəbdən baxıcısını əzəndə olanlar olur. Erwin qəsəbə yolları inşa edilən, inkişaf edən və öz məhkəməsi olan bir qəsəbə idi. Cinayət günahından mühakimə olunan fil Mary günahkar bilindi və edamına qərar verildi. Fil Mary, Erwin qəsəbəsindən 40 km uzaqlıqdakı Kingsport qəsəbəsinin meydanında şəkildə görüldüyü kimi edam edildi.

Təbii ki 5 tonluq bir fil olan Mary adi kəndirlə asıla bilməzdi. Bu səbəblə bir dəmir yolu qaldırıcı kranı istifadə edilməyə qərar verilib. İlk sınaqda beş tonluq fili qaldıra bilməyən kranın zənciri qırılır, yerə düşən Mariyin budu və ayaqları sınır. İkinci dəfə isə daha da gücləndirilmiş bir zəncir tapılır və ölüm yenidən həyata keçirildi. Bu dəfə uğurlu oldu və fil Mary cinayət günahından dolayı edam edildi.

## İg Nobel mükafatı

Dünyada elm və sənət sahələri üzrə bir çox beynəlxalq və milli mükafatlar mövcuddur. Hər il on minlərlə insan bu mükafatlara layiq görülür. Bu məşhur mükafatlardan biri də Nobel mükafatıdır. Mükafat alanlar ilə yanaşı milyonlarla insan bu mükafatları almaq yolunda məğlub olurlar. Amma bəzən elə «kəşflər „ə imza atır, elə “yüksək » sənət əsərləri yaradırlar ki, onların əməyini qiymətləndirməmək ən azından insafsızlıq olardı. Bunu nəzərə alan xeyriyyəçi-filontroplar və estetlər sayı o qədər də çox olmayan antimükafatlar təsis etmişlər və hər il xeyli insan bu mükafatlara layiq görülür.

Bu cür mükafatlara, demək olar, bütün mədəni xalqlarda rast gəlmək olur və bütün dünyada tanınan, nüfuzlu mükafatlar olduğu kimi, son dərəcə «prestijli » antimükafatlar da vardır. bunların sırasında, əlbəttə ki, "İg Nobel mükafatı «nı (İg Nobel Prize - ingiliscədə „ignoble “ — biabırçı, əttökən sözündən) xüsusilə qeyd etmək lazım gəlir. Həqiqi Nobel mükafatlarının verilməsindən bir həftə qabaq ənənəvi olaraq lazımsız, faydasız kəşflərə yumoristik, satirik Nobel mükafatları verilir.

Mükafat Maks Abraham və „Qəribə tədqiqatların səlnaməsi “ adlı yumoristik jurnal tərəfindən 1991-ci ildə təsis edilmişdir. Bir qayda olaraq Harvard universitetində düzənlənən mərasimdə verilən antimükafat əsl Nobel mükafatı laureatları tərəfindən təqdim olunur. İgNobelin verilməsi proseduru da adına uyğun şəkildə təşkil olunur. Harvardın Sanders Teatrının 1166 yerlik zalında kağız təyyarələr uçuşur. Laueratların çıxışı 60 saniyədən çox olmamalıdır. Laureat 60 saniyədən çox danışdığı halda ,adətən, Sviti Pu adlı qızcığaz cır səslə qışqırır: „Xahiş edirəm, bəsdir! “. Amerika televiziyası və radiosu mükafat mərasimini birbaşa məruzə edir və bütün dünya mətbuatı günlərlə bu hadisə haqqında danışır.

Ig Nobel Mükafat həmçinin güldürən, sonra isə düşünməyə məcur edən nailiyyətlərə görə verilir (first make people laugh, and then make them think). Məsələn fizik Andre Geim əvvəlcə belə İg Nobel almışdı, bir neçə il sonra fizika üzrə həqiqi Nobel mükafatı aldı.

**İndi isə tarixdə bu mükafatı alanlara nəzər salaq.**

2010-cu ildə Yeni Zelandiyalı fiziklər qarlı-buzlu ölkələr üçün çox aktual eksperimentlər aparmışlar. Nəticədə onlar belə qənaətə gəlmişlər ki, əgər corabları ayaqqabının üstündən geysən, buzun üstündə sürüşüb-yıxılmazsan.

2006-cı ildə Mak-Hill universitetinin alimi P.Brass «Ağacdan düşən kokosların yetirdiyi xəsarətlər» elmi araşdırmasına görə mükafatlandırılmışdır.

Prinston universitetinin professoru Daniel Oppenqeymer öz nitqində jarqon və mürəkkəb tərkibli eruditlər haqqında dərc etdirdiyi məqaləyə görə bu şərəfə layiq görülüb. O, belə qənatə gəlmişdi ki, çox çətin oxunan mətnləri, adətən, yüksək intellekti olan müəlliflər yazırlar.

2007-ci ildə Barselona universitetinin alimləri Xuan Toro, Jozel Xuan, Nuriya Qalles sübuta yetirmişdilər ki, siçovullar tərsinə səsləndirilən yapon sözlərini tərsinə səsləndirilən holland sözlərindən fərqləndirə bilmir. Nəticədə təntənəli surətdə İg Nobel almışdılar.

Hətta bir tibb həkimi olan Donald Anqer 50 il boyunca yalnız sol əlindəki barmaqlarını şıqqıldatmış, sağ əlindəkiləri heç şıqqıldatmamışdı. 50 illik işinin nəticəsində əllərinin əsməsində hər hansı bir fərqlilik olmadığını ortaya qoymuş və 2009-cu ildə Tibb sahəsində Ig Nobel Mükafatını qazanmışdı.

Qeyd etmək lazımdır ki, İg Nobelə layiq görülənlər, adətən, bu mükafatı təşkilatçıların əlindən şəxsən alırlar və buna kifayət qədər yumorla yanaşmağa çalışırlar.

## Dinozavrlar haqqında 6 mif

1676-ci ildə ilk dəfə dinozavr sümüyü tapılanda, bunun bir filə, ya da bir dəvəyə aid olduğu güman edilirdi. Yüz il sonra, elm insanları bu skeletlərin Megalosaurus adlı qısa boylu həddən artıq böyük kərtənkələyə aid olduğunu kəşf etdilər. Daha sonra, 1842-ci ildə Riçard Ouen adlı bir alim Megalosaurus-un tamamilə yeni bir heyvan qrupunun üzvü olduğunu fərq etdi və bu heyvan qrupuna Dinozavr adını ya da “Qorxunc Kərtənkələlər” adını verdi.

O gündən etibarən, təxminən 700 fərqli dinozavr növü kəşf olundu və demək olar ki, hər ay yeni bir növ kəşf edilir. Beləliklə də dinozavrlara dair fikirlərimiz də radikal bir şəkildə dəyişikliklərə məruz qalır. Bu gün artıq dinozavrların qədim kitablarda gördüyümüzdən çox daha fərqli canlılar olduğunu bilirik. Ancaq nə var ki; Dinozavrlara dair doğru hesab edilən olduqca yanlış bilgilər hələ də geniş şəkildə cəmiyyətin beynindəki varlığını davam etdirir. Bu yazımızda dinozavrlarla bağlı 6 geniş yayılan mifi və bu miflərə qarşı elmi tədqiqatların ortaya qoyduğu həqiqətləri açıqlayacağıq.

**Mif 1: "Bütün dinozavrlar çox böyük canlılardır"**

Dinozavr kəlməsi adətən ağılda nəhəng görüntülər yaradır, ki bəli bir çoxu da olduqca böyükdür. Məsələn; Tiranozavr Reks təxminən 12 metr uzunluğunda, 5 tondan daha ağır, bir fil böyüklüyündə və yəqin ki, ən iri yırtıcı deyildi. Uzun boyunlu, bitki ilə qidalanan Saropodlar daha çox böyüdülər. Yalnız bir neçə sümüyü ilə tanınan nəhəng Argentinozorların boylarının 30 metr və çəkilərinin 80 ton olduğu güman edilir. Bu, yaşayan ən böyük məməlisindən və böyük balinalardan çox daha böyük ölçüdür. Ancaq dinozavrlar bu məqamda demək olar ki, təkdirlər. Çünki bu günə qədər yaşamış, heç bir quru heyvanı bu qədər böyüklüyə çatmadı.

Ancaq nə var ki; bütün dinozavrlar nəhəng ölçülərdə deyildi. Məsələn, buynuzlu dinozavr Protoceratoplar haradasa bir qoyun böyüklüyündəydi. Velociraptor isə ancaq bir golden-retriever miqyasındaydı və daha dəhşətli görünməsi üçün Jurassic Park-da böyüdülmüşdü. Son illərdə kiçik növlərin kəşfində haradasa bir partlayış baş verdi, məsələn; Pişik böyüklüyündə yırtıcı Hesperonychus, dovşan böyüklüyündə və otla qidalanan Tianyulong və bildirçin böyüklüyündə həşərat yeyən Parvicursor. Əslinə baxsanız, kiçik növlər yəqin ki, nəhəng dostlarından çox yayılmışlar.

**Mif 2: "Dinozavrlar pulcuqlarla ğrtülü bir dəriyə malik idi"**

İlk dinozavr kəşf ediləndə, görünüşə görə timsahların və kərtənkələlərin qohumuydu, beləcə bədəni pulcuqlarla örtülü olmalı idi. Və pərdə ayaqlılar, buynuzlu dinozavrlar, saropodlar və zirehli dinozavrlar da daxil olmaqla bir çox dinozavr pulcuqlu görüntüsü verirdi. Lakin, 1970-ci ildə paleontoloqlar, bəzi dinozavrların, quş qohumları kimi tüklü ola biləcəyi məsələsinə maraq saldılar.

Zamanında bu yanaşma olduqca çılğın bir şübhə olaraq düşünülüb, amma 1997-ci ildə Sinosauropteryx adlı kiçik bir yırtıcı dinozavr kəşf edildi və pulcuqlarla örtülü deyildi, üstəlik yumşaq tüklərlə örtülüydü. Sonra, bitkilərlə qidalanan ornithopodlar, iti dişləri olan heterodontozorlar və T.Rex kimi yırtıcı dinozavrların pulcuqlarla örtülü deyil, yəqin ki, tüklü olduqları məlum oldu.

**Mif 3: "Dinozavrların hamısı yaşıl və qəhvəyi rəng idi"**

İlk dinozavr rəsmlərində sıxıcı rənglər hakim olmuşdur; Boz, yaşıl və qəhvəyi tonları hakim olan monoton heyvanlar. Əgər Mezoik dövr həqiqətən də bu qədər sıxıcıydısa, təbii ki, də yox olarlar. Amma həqiqətdə isə, rənglər daha canlı və hətta daha çox idi. Dinozavr pulcuqları və tüklərinə dair araşdırmalar; Kərtənkələ pulcuqlarının, quş tüklərinin və saçlarımızın rəngli olmasına səbəb olan melanin piqmenti izlərinin olduğunu ortaya çıxardı. Aparılan araşdırmalar, dinozavrların; Qırmızı, qara və ağı da daşıyan çox müxtəlif bir rəng şkalasına malik olduqlarını göstərir. Bundan başqa bəzi işarələr tüklərinin olduqca cəlbedici olduğunu ortaya qoyur.

Yalnız bununla da məhdud deyil, bir çox dinozavr ağ qarınları və qara kürəkləri üzərində xallara və cizgilərə malik idi. Bu rəng hörgüsünün bəziləri yəqin ki, kamuflyaj üçün keçirmişdi və dinozavrların ovçularından və ovlardan gizlənmələrinə imkan verirdi. Amma parlaq rənglər və parlaq hörgülər eynilə bir tovuzquşu quyruğunda olduğu kimi cütləşmə üçün göz boyayan xüsusiyyətdəydi.

**Mif 4: "Dinozavrlar pis valideynlər idi"**

Bir çox sürüngən sadəcə yumurta basdırar və yoluna davam edər. Yəni balalarının baxımını öz üzərlərinə götürmürlər və balalarını ən yaxşının həyatda qalacağı bir şəraitdə yalnız başlarına qoyurlar. Bu tərz bir valideynlik öz içərisində risklər daşıyır. Bir dəniz tısbağası həyatı boyu minlərlə yumurta qoyur və yalnız bir neçəsi böyüyür. İlk başlarda, dinozavrların da eyni çoxalma strategiyasını izlədikləri hesab edilirdi. Ancaq bunun yanlış olduğunu artıq bilirik.

Yaşayan dinozavr qohumları –quşlar və timsahlar– yumurtalarını və balalarını qoruyurlar, buna görə də dinozavrların da belə bir davranış göstərdiklərini düşünmək olduqca məntiqlidir. Və artıq buna dair bir sübutumuz var. Qobi Səhrasında ki, araşdırmalarda, yumurtaların üzərində oturan bir dinozavr kəşf etdi, və bu dinozavr (Oviraptor, ya da "yumurta oğrusu") yuva qarət edildiyi zaman öldüyü hesab edilib. Amma sonrasında, yumurtalar üzərində daha çox skeletə rast gəlindi, eynilə yumurtaları üzərində oturmuş bir quş kimi. Bu da Oviraptor–un yumurtaları yemədiyini, onları qoruduğunu göstərir.

**Mif 5: "Dinozavrlar məhv olmağa məhkumdu"**

Dinozavrların məhv olması uzun bir müddət özlərindən mənbəli bir problemlə əlaqələndirib: Dəyişən ətraf mühitə adaptasiya problemi. Həqiqətdə isə, dinozavrlar 100 milyon ildən artıq bir müddət ərzində Şimali və Cənubi Amerika, Asiya, Avropa, Afrika və hətta Antarktidada yaşadığı bilinir.

Bundan başqa, skeletlər Dünyaya bir asteroid (Meksikada) dəyəndə, dinozavrların 66 milyon il əvvələ qədər geniş və müxtəlif olduğunu göstərir. Asteroidin ortaya çıxartdığı toz, günəş işığını əngəllədi və dünyanın qaranlığa bürünməsinə səbəb oldu. Dinozavrların məhv olması özlərindən mənbəli bir nəticə deyil, kosmik bir qəzanın nəticəsi idi. Əgər ki, asteroid çox kiçik bir bucaqda yolundan dönsəydi, bu gün dünyada hökm sürən biz yox dinozavrlar olardı.

**Mif 6: "Dinozavrlar tamamilə yox oldu"**

Asteroid; T.Rex, Triceratops və digərlərini məhv edərkən, bəzi kiçik tüklü dinozavrlar və yəqin ki, biraz daha çoxu həyatda qaldı. Bunlar T.Rex və Velociraptor kimi dinozavrların uçan dostları; Quşlar idi. Və yalnız həyatda qalmadılar, təkamül keçirdilər və bu gün on minlərlə quş növünə döndülər.

## Piza qülləsi

Piza qülləsi İtalyanın Piza şəhərindədir və orta əsrlərin möhtəşəm tikililərindən hesab edilir. Bu qülləni hamı "düşən" qüllə adlandırır. Piza qülləsi "düşməsə" də, o, onsuzda bir möcüzə

olaraq qalmaqdadır. Qüllənin ən alçaq tərəfinin torpaqdan hündürlüyü 55,86 metrdir və ən yüksək tərəfi isə 56,7 metr hesablanmışdır. Divarların enliliyi 4,09 metr və yuxarıya doğru istiqaməti isə 2,48 metr olduğu qeyd edilmişdir. Onun ümumi kütləsi 14453 ton hesab olunur. Tikilinin əyilmə meyli 3,97° sayılır. Şaquli vəziyyətindən 3,9 metr uzaq bilinir. Həmçinin qüllənin 294 pilləsi vardır.

Qüllənin yuxarı hissəsi vertikaldan 5 metr maillənmiş vəziyyətdədir. Başqa sözlə desək, qüllə 5 metr əyilmişdir. Qüllənin başına çıxan hər bir kəs bunu çox sadə bir üsulla yoxlaya bilər. Belə ki, qüllənin başından atılan bir daş, qüllənin dibindən 5 metr aralıya düşür. Bu da qüllənin vertikaldan 5 metr meylləndiyini, yəni — 5 metr əyildiyini göstərir.

Bəs, qüllənin əyilməsinə səbəb nədir? Hələlik heç kəs bunun dəqiq səbəbini bilmir. Sözsüz ki, qüllə inşa olunan zaman heç kəs istəməzdi ki, qüllə bu vəziyyətə düşsün. Belə hesab edilirdi ki, qüllə inşa edildikdən sonra əsrlərlə düz, dik duracaq.

Ümumilikdə isə Piza qülləsinin memarlığı italyan abidələri içərisində ilkin yer tutur və bu ansambl 1063-cü ildən hazırlanmağa başlanmışdır. Hətta Piza kilsəsində İtaliya tarixində mühüm rol oynayan bir neçə şəxsin qəbri də vardır. Bunlardan ən tanınmışı isə alman imperatoru VII Henrikdir.

Qüllə Baş kilsənin yanında, kilsə zənglərinin asılması məqsədilə inşa edilmişdir. İnşasına 1174-cü ildə başlanmışdır və 1350-ci ildə başa çatmışdır. Naməlum səbəblərdən qüllənin inşası 176 il sürmüşdür.

Qüllənin özülü qumluqda qoyulmuşdur. Ola bilsin ki, məhz elə bu səbəbdən əyilmə baş vermişdir. Onu da qeyd eləmək lazımdır ki, qüllə birdən-birə əyilməmişdir. Əyilmə 3 mərtəbə və 3 qalereya tikildikdən sonra yaranmışdır. əyilmə baş verən zaman layihədə müəyyən dəyişikliklər edilmiş və bundan sonra tikili müəyyən qədər düzəlmişdir, maillik azalmışdır. Amma bu da tikilinin əyilməsinin qarşısını tam ala bilməmişdir.

Son 100 ildə qüllə 0,3 metr, yəni-33 sm əyilmişdir. Mühəndislər belə hesab edirlər ki, qüllənin haqlı olaraq "düşən" qüllə adlandırırlar. Çünki, ya gec, ya da tez, nə vaxtsa qüllə düşəcəkdir. Yəni - yıxılacaq.

## Vikinglər

Vikinglər azad kəndlilərdən toplanan və əsasən ticarət və quldurluq üçün dənizlərdə drakkarlardaüzən müxtəlif tayfalardan ibarət (əsasən skandinav mənşəli) sosial təbəqə. 810-cu ildən başlayaraq, 300 il Skandinaviyada hökm sürüblər. 300 il ərzində Vikinqlər bütün Avropaya yürüş ediblər. Avropanın çox yerində məskən salan vikinqlər Qrenlandiyanı kəşf ediblər Xristofor Kolumbdan 500 il əvvəl Şimali Amerikaya ayağ basan ilk avropalılar olublar. Fransada və Şotlandiyada öz dövlətlərini yaradıllar.

Anqlo-sakslar və digər millətlər Skandinaviyanı tərk etdikdən sonra buraya Danlar gəlib, 800-cü ildə öz dövlətlərini yaratdılar. 810-cu ildə şah Qotrrikın ölümündən sonra dövlət

dağıldı və vikinqlər hakimiyətə gəldi. Buna səbəb vikinqlərin çoxsaylı gəmiləri və dənizdə güclü naviqasiyaya malik olmaları idi. 814-cü ildə Böyük Karlın qurduğu franklar dövləti vikinqlərin və ərəblərin hücümlarından sonra dağıldı. Amma vikinqlərin düşmənları birləşəndə və vikinqlərə hücüm edəndə sonuncular uduzurdular. Belə ki, Vikinqlər 878-ci ildə İngiltərədə məğlub oldular. 891-ci ildə anqlo-saks şahı Alfred vikinqləri məğlub etdi. Eləcə də frank ordusu vikinqləri məğlubiyyətə uğradıb.

İlk yürüşlərindən biri bir qrup norveçlinin 793-cü ildə İngiltərəyə hücümüdur, vikinqlər Lindsafr adasında kilsəni dağıdırlar. Bir ildən sonra isə Veramus kilsəsini dağıtmışlar. 795-ci ildə vikinqlər Men və Ayona adalarına hücüm etmişlər. 802-806-cı illərdə buralarda kilsə dağıtmışlar. Bütün hücümlar qısamüddətli və qəfil olurdu: vikinqlər müharibə elan etmədən gəmi ilə sahilə yanaşıb şəhərlərə hücüm edir, rəqib ordu yığılana qədər əllərinə keçəni götürür, evləri yandırır və gedirdilər. Bu hadisələrdən 20 il keçəndən sonra vikinqlər çoxsaylı ordu yığaraq İngiltərəyə və Fransaya yürüşlər etmişdilər. Fransaya yürüşdən sonra vikinqlər  İngiltərəyə doğru yürüş edirlər. 836-cı ildə Vikinglər birinci dəfə Londona hücüm etmişlər, daha sonra Danlar (600 gəmidən çox) olan ordu ilə Bremenə hücüm etmişlər şəhər elə vəziyyətə gəlmişdi ki, yepiskop rezidensiyası Bremendən köçürülmüşdü. 851-852-ci illərdə yenidən İngiltərəyə hücüm edən vikinqlər London və Kenterberri şəhərlərinə hücüm etmişdilər; bu yürüşdə 350 gəmi iştrak etmişdir.

866-cı ildə payızda Tulfan 20.000-lik Viking ordusunu gəmilərlə Şotlandiyaya götürüb çıxarır Bu zaman burda şərgi İngiltərə dövləti var idi. Burada qış keçirib gələn ilin əvvəlində isə Denlo dövləti yaradırlar. 878 ildə nəhayətki uzun sürən müharibənin sonunda Anglo-Sakslar Vikingləri torpağlarından qovurlar amma bu zaman yeni Viking Flotu İngiltərəyə və Fransaya doğru yürüş edir.880 ildən 911 llədək Vikinglər fransanın bir çox şəhərlərinə hücüm edib gəlib parisə çatmışdılar.40.000 Viking ordusunu görüb təşfişə düşmüş Fransızlar pul verməklə canlarını xilas edirlər.Vikinglər Fransanın şimal-qərb tərəfinə keçib burada qalırlar.911 ildə Fransa kralı Karl III Viking hökmdarı Rollon-a işğaı etdiyi torpağları bağışlarıy və 911 ildən Normandiya yaranır.900-935 ildə indiki Daniya dövləti ərazisində Böyük bir Şahlıq yaranır.1016 daniyalı Vikinglər İngiltərədə hakimiyyəti öz əllərinə alırlar.

300 il ərzində gedən yürüşlər avropada çox saylı vikinglər dövlətinin yaranmasıyla bitmişdir.

Vikinq evləri çox zaman bir otaqlı olurdu. Varlı Vikinqlər daha böyük evlərdə yaşayırdılar. Vikinqlər çox zaman taxtadan ev tikirdilər, amma Grenlandiya və İslandiyada taxta az olması səbəbindən evləri yerli daşların köməyi ilə tikirdilər. Burada divar enniliyi 90 santimetr təşkil edirdi. Evin ortasında isə mangal olurdu, burada yemək hazırlanardı.

Skandinaviya sakinləri qədim zamanlardan nizələr işlədirdi buna sübut arxeoloji tapıntılardır. Vikinq nizəsi digər nizələrdən öz ağırlığı ilə fərqlənirdi.Bu nizələr atılmaq üçün deyil, döyüşdə istifadə üçün işlənirdi.Amma vikinqlərdə eləcə də atmaq üçün nizələr də mövcud idi.

Vikinq Baltası 90 santimetr uzunluğunda idi.Baltanı döyüşdə rahat istifadə etmək mümkün idi.Belə ki, bir dəqiq zərbədən sonra ikincisinə ehtiyac qalmırdı.Balta hücümda çox yaxşı idi, amma müdafiəyə yararsız idi.Baltalar vikinqlər arasında çox məşhur idi. Belə ki, Vikinq

hökmdarları Eyrik Xaraldson və Eyrik blodeks (qanlı balta ləqəbi ilə tanınan) baltadan istifadə edirdi.Normanların Qastinqs döyüşündə qələbənin əsas faktoru Vikinqlərin daha güclü silahları idi.

Vikinqlər dövründə Avropada ən məşhur silah Qılınc idi skandinaviyada isə skramasaksam adlı qılınclar var idi.Bunlar bir ülgüclü uzun tipli qılınclar idi. İllər ötdükcə qılınclar skandinaviyada dəyişir və indiki zamanda Vikinq qılıncı kimi tanınan qılınca çevrildi.Skandinaviya qılıncı uzun və ağır idi. Skandinavlar öz silahlarına ad qoyurdular belə ki çox işlənmiş silahlara skandinavlar çalışırdı yadda galan ad versinlər məsələn «Döyüş odu» kimi.Vikinq baltaları və qılıncları gızıl və gümüşlə bəzənilirdi.Ən gözəl silah bəzək üsullarından biri silah tutacağı düzəldərkən tutacağa həm mis, həm də qümüş yeridirildi bununla da silahın tutacağı ağ-qara olurmuş.

Viking zirehləri öz tipinə görə Sparta zirehlərinə oxşardılar.Bunu X əsrin dəbilqəsinə baxdıqda (hal hazırda olan şəkil) bilmək olar. Eləcə də bəzi mənbələrə görə Vikinqlər döyüşə at formalı dəbilqələrdə gedirdilər.

Vikinqlərin gəmiləri onların ən böyük nəaliyyətləri idi. Vikinqlər çox vaxt öz gəmilərini şeirlərdə təsvir edirdilər. Nisbətən yüngül gəmilərlə vikinqlər qəflətən hücümlar edirdilər. Gəmilərin mənfi cəhəti onların çox üzə bilməməkləridir. Vikinq gəmiləri digər gəmilərdən avarların sayı ayırırdı, belə ki ən minimal ölçülü vikinq gəmisində 13 cüt avar vardır. İlk gəmilər 40-80 nəfər daşımaq qabiliyyətinə malik idi. Bir çox iri vikinq gəmiləri rənglənirdilər. Vikinq gəmisinin ucunda çox vaxt əjdaha başları olardı. Gəminin arxasında isə çox vaxt əjdaha quyruğları təsvir olunardı. Gəminin quruluşuna əsasən gəmi küləyə əks də üzə bilərdi. Bir neçə Vikinq gəmisi isə bizim vaxta qədər Skandinaviya muzeylərində saxlanılır. Ən məhşur tapıntı 1880-ci ildə tapılmış bizim eradan əvvəl 900-cü ilə aid olan gəmidir. Bu gəminin 23.3 metr uzunluğu və 5.3 metr enniliyi var, həmçinin gəminin 32 avarı var. Gəmidə 32 qalxan var.

Vikinqlər şimal tanrılarına inanırdılar. Bunlara Odin, Tor, Tir, Freya və başqaları aiddir. Məsələn öz dinlərinə görə olar döyüşlərdə düşmənlarınə qarşı rəhimsiz olurdular. Onların inanclarına görə əlində silahnan ölən döyüşçü Odinin Asqardakı Valhalla sarayına düşəcəklər. Orada isə pirlərdə və məşq döyüşlərində Raqnarökə qədər (Allahların ölümünə kimi, dünyanın sonuna kimi) yaşayacağlar. Bütün qorxaqlar və qullar Şər dünyası Xel-ə düşürdülər və orada isə dünyanın axırınacan qalırdılar. 793-ci ildə Vikinqlər Lindisfarn adasında kilsəni talan etdilər bu tarix ərzində vikinqlərin Avropaya birinci hücümu idi.
841-ci ildə Vikinqlər Dublin şəhərinin əsasın qoydular.
845-ci ildə Danimarka Vikinqləri Qamburq şəhərinə hücüm etdilər.
860-ci ildə Vikinqlər konunq Qastinq-ın başçılığı altında Nant daha sonra isə Ruan şəhərini talan etdilər.
874-ci ildə Vikinqlər İslandiya şəhərinin əsasın qoydular.
911-ci ildə Vikinqlər Paris şəhərini talan etməmək üçün Fidya alandan sonra Fransanın Şimal-qərbində məskan saldılar daha sonra isə Karl III bu məskənləri Rollon-a bəxş etdi.
986-ci ildə Kürən Erikin başçılığı altında İslandiya Vikinqləri iki koloniyanın əsasın qoyublar. Bunlar Esterbüggen və Vesterbüggen idilər.

1000-ci ildə Vikinqlər Qrenlandiyanı kəşf etdilər.
1066-ci ildə Vikinqlər Britaniyanı işğal etdilər.

Böyük partlayış haqqında 5 məlumat

Astronomlar Edvin Habbl və Milton Humason, 20.yüzyılın əvvəllərində qalaktikaların Süd Yolundan uzaqlaşmaqda olduqlarını kəşf etdi. Əslində vəziyyət belə idi: Hər qalaktika, bütün digər qalaktikalardan uzaqlaşırdı ki, bu da kainatın bütövlükdə genişlənməkdə olduğu mənasına gəlirdi. O halda keçmişdə, bütün kainat çox kiçik, isti və sıx olmalı idi.

Böyük Partlama modeli kimi tanınan bu tərif, təxminən yüz ildir ki, yeni kəşflərə və rəqib nəzəriyyələrə qarşı ayaqda qaldı. Bəs nədir bu "Böyük Partlayış" hadisəsi?

**1.** Böyük Partlayış hər yerdə eyni anda oldu.
Kainatın mərkəzi və ya kənarları yoxdur və kainatın hər yanı genişlənir. Elə isə, əgər zamanı geri sara bilsək, hər şeyin nə vaxt bir-birinə bitişik olduğunu anlaya bilərdik: 13,8 milyard il əvvəl. Bu anda kainatda gördüyümüz bütün yerlər 13,8 milyard il əvvəl eyni nöqtəni işğal etməkdə olduqlarına görə Böyük Partlayışın yerinden söz edilə bilməz. Hər yerdə eyni anda deyilə bilər yalnız; Çünki o vaxt hər yer, yeganə və eyni bir yer vəziyyətindəydi.

**2.** Böyük Partlama hər şeyin əsl başlanğıcı demək olmaya bilər.
"Böyük Partlayış" geniş mənalı olaraq universal genişlənməyə və isti erkən kainata işarə edir. Bununla bərabər, bəzən alimlər belə bu termini zamandaki tək bir nöqtəyi təsvir etmək üçün istifadə edir: Hər şeyin tək bir nöqtəyə düşdüyü an. Problem bundadır ki o anı xarakterizə edəcək heç bir fakta və ya nəzəriyyəyə malik deyilik. Başlanğıc tekillik, müşahidə etdiyimiz kainatın başladığı nöqtə olsa da ondan əvvəl başqa bir şeylər var olmuş ola bilər.

İşin çətinliyi buradan qaynaqlanır: Çox isti olan erkən dövrün və tekilliyi izləyən sürətli genişlənmə mərhələsi, Böyük Partlamadan öncə olanlara dair bütün informasiya (ya da hamısına yaxınını) sildi. Fiziklər o zamana aid izləri tapmağın yollarını düşünməyi davam etdirir.

**3.** Böyük Partlayış nəzəriyyəsi, kainatdakı bütün hidrogenin və heliumun haradan gəldiyini açıqlayır.
1940-cı illərdə Ralf Alpher və Corc Gamow, ilkin mərhələnin (kainatın Böyük Partlayışdan

dərhal sonrakı dövrdəki vəziyyətinin) bu anda kainatda olan helium, litium və döteryumun (bir neytronlu hidrogen) dərhal hamısını yaratmaya yetəcək temperaturda və sıxlıqda olduğunu hesabladı. Daha sonra aparılan tədqiqatlar ibtidai hidrogenin mənşəyini açıqladı. Bu proses "Böyük Partlayış nükleosentezi" adlandırılır və nəzəriyyənin ən uğurlu proqnozlarından biridir. Daha ağır elementlər (oksigen, dəmir və uran kimi) ulduzlarda və süpernova partlayışlarında yaranmışdır.

Böyük Partlayışa ən yaxşı dəlil mikrodalğa formasındadır. Başlanğıcda bütün kainat bütövlükdə saf olacaq qədər sıx idi. Amma Böyük Partlayışdan təxminən 380.000 il sonra, genişlənmə hər şeyi bir-birindən uzaqlaşdıraraq kainatı dayazlaşdırdı.

Bu genişlənmədən salınan şüalanma bu gün hələ də mövcuddur və kosmik mikrodalğalı arxa sahə şüalanması kimi tanınır. İlk olaraq 1960-cı illərdə Arno Penzias və Robert Uilson tərəfindən müşahidə olunmuşdur. Bu kəşf, Böyük Partlayış nəzəriyyəsinin kainatın ən yaxşı nəzəriyyəsi olduğunu dəstəklədi.

**4.** Kainatın başlanğıcı haqqında elmi fikirlər ortaya atan ilk insanlardan biri də bir Katolik keşişi idi.
Dini təhsilinə və işlərinə əlavə olaraq, Jorj Lemetr ümumi nisbilik üzərində işləyən bir fizikçiydi. 1920-li və 30-lu illərdə, erkən kainatın bir sıra şərtlərini ortaya qoymuşdu. Kainatın başlanğıcı üçün istifadə etməyə üstünlük verdiyi metafora "kosmik yumurta" və "qədim atom" idi. Amma bu fikirlər, təəssüf ki, o qədər də nəzərə alınmadı.

**5.** "Böyük Partlayış" adı qarşı fikirlər tərəfindən qoyulub.
1960-cı qədər, başlanğıcı olan bir kainat ideyası fiziklər arasında mübahisəli vəziyyətdə idi. "Böyük Partlayış" adı da əslən astronom olan Fred Hoyl tərəfindən uydurulmuşdu. Fred Hoyl, kainatın bir başlanğıcı olmadığını müdafiə edən alternativ bir nəzəriyyə müdafiəçilərindən idi. Qarşı olduğu nəzəriyyəyə taxdığı bu qısa ad çox tutuldu və artıq yerləşdi.

## Sardonik gülüş

İlk dəfə Homerin «Odisseya»sında rast gəlinən bu gülüşün adı Sardiniya adasında bitən bir otu yedikdən sonra zəhərlənib ölən insanların simalarında gülüşəbənzər acı ifadənin yaranması ilə bağlıdır.

Homerin «Odisseya» poemasında İtakaya qayıtmış Odissey və Penelopanın adaxlılarından biri olan Ktesipp arasında yaranmış mübahisədə təhqir olunmuş Odissey sardonik gülümsəyir. Yunan deyiminə görə, sardonik gülüş ölən anda gülən insanlar barədə işlənirdi.

Sardiniyada bitən bitkidən başqa, belə bir izah da var ki, Sardiniyada qocaların qurban gətirilməsi mərasimi gülüşlə müşayiət olunurdu, bu zaman qurban özü də gülürdü. Buna görə də sardonik gülüş-acı gülüş olaraq anlaşılır.

Tetanus xəstəliyi nəticəsində mimiki əzələlərin qıcolmaları nəticəsində,üz nahiyəsində məcburi gülüş yaranır buna da tibbdə Sardonik gülüş deyilir.

Valideynləri tərəfindən atılan məşhurlar

**Stiv Cobs**
1955-ci il fevralın 24-də San Fransiskoda dünyaya gəlib. Anası Coanne Şieble, atası Əbdülfəttah Candali Viskonson Universitetinin aspirantları idi. Onların rəsmi nikahı olmadığı üçün övladlarını uşaq evinə verməyə məcbur olurlar. Körpə Paul və Klara Cobs tərəfindən övladlığa götürülüb. Onlar uşağa Stiv adını qoyublar. Klara mühasib, Paul isə sahil mühafizə xidmətinin veteranı və maşinist idi.

Stivə texnologiyanı məhz ögey atası Paul sevdirib. Onlar evin qarajında saatlarla hansısa aləti söküb, yığırdılar. Bu, Stivdə artıq bir hobbiyə çevrilmişdi. Texnikaya olan bu istək, həvəs gələcəkdə Stiv Cobsu "Apple" şirkətinin qurucusu edir. Yeri gəlmişkən, Stiv 27 yaşında bioloji valideynlərini tapır. Onda Əbdülfəttah politologiya üzrə professor, Caanne isə loqoped idi. Cütlük artıq evlənmişdi və Mona adlı bir qızları da vardı. Mona da sonralar Amerikanın yazıçılarından biri olur.

**Nikol Riçi**
Nikol Riçi bəziləri tərəfindən məşhur müğənni Laynl Riçi və Brendanın qızı olaraq tanınır. Amma həqiqət elə deyil. Nikol əslində Laynl Riçinin orkestrində çalışan bir cütlüyün qızıdır. Nikolun ailəsi onu üç yaşına qədər böyüdüb, daha sonra maddi durumları yaxşı olmadıqları üçün dostları müğənninin himayəsinə veriblər. Nikol 9 yaşına çatanda, yəni Riçi cütlüyü boşanmadan bir il əvvəl rəsmi olaraq məşhur müğənni tərəfindən övladlığa götürülüb.

**Con Lennon**
Con dünyaya gələndən dərhal sonra valideynləri ayrılmışdı. Amma sonra yenidən evlənmişdilər. Culiya kəbin mərasiminə gecikmişdi. Çünki yolda kinoya baxmaq istəmişdi. Dörd il sonra əri Alfred onları qoyub gedir. Nə vaxtsa qayıdacağına söz verərək... Balaca Conu xalası Mimi saxlayır, tərbiyə edir.

**Koko Şanel**
Dünyadakı ən məşhur qadın dizayner 1883-cü ildə Samurda dünyaya gəlib. 5 uşaqlı bir ailəsi olub və ailənin maddi durumu yaxşı olmayıb. 12 yaşında atası onu əvvəlcə bir uşaq

evinə, sonra katolik monastrına, daha sonra da yatılı bir internat məktəbinə göndərib. Kokonun dediyinə görə, yaşadıqları onu bu peşəni seçməyə məcbur qoyub. Çünki həyatı boyunca ancaq boz rəngli bir məktəbli forması geyinmək məcburiyyətində olmuşdu.

Ray Liotta
Rayın bioloji valideynləri onu rədd edib, çünki bir uşağı saxlamaq məsuliyyətini üzərlərinə götürməyiblər. Zəngin bir italyan ailə tərəfindən övladlığa götürülən Rayın bir bacısı var.

Jamie Foxx
Məşhur aktyor Jamie Texasda Lusi Dixon və Darrell Bishopun ailəsində dünyaya gəlib. Doğuşdan qısa müddət sonra ailəsi Jamieni övladlığa verib. Yeni ailəsi ona sənəti sevdirib. Pianoda ifa etməyi öyrədib.

İnsan orqanizminin maraqlı xüsusiyyətləri

İnsan bəşəriyyətin ən möcüzəli varlığıdır. İnsan orqanizmi, onun fəaliyyəti, daxili və xarici orqanların xüsusiyyətləri və s. Bütün bu proseslər mürəkkəb strukturun bir hissəsidir. İnsan bədənində 206 sümük, 32 diş, 10 barmaq, iki göz, iki qulaq, bir burun, bir ağız, bir ürək, iki böyrək və.s saymaq olar. Lakin bunlar hələ hamısı deyil. Bizə elə gəlir ki, biz bədən üzvlərimiz haqqında hər şeyi bilirik. Amma insan orqanizminin mürəkkəb quruluşunda xeyli sirli məqamlar var.

1. Omba sümüyünün möhkəmliyi qranitə bərabərdir.
İnsan sümüyü – Yer üzündə ən möhkəm materiallardan biridir. Möhkəmliyinə görə onu beton və təxminən qranitlə müqayisə etmək olar. Təsəvvür edin, kibrit qutusu ölçüsündə sümük 9 ton kütlənin ağırlığına dözə bilər. Bu ağırlıq beton divarın daşıya biləcəyi ağırlığın 4 qatıdır. İnsan bədənində ən böyük sümük – böyük omba sümüyüdür. Hansını ki, yalnız ekstremal şəraitdə (avtomobil qəzası) sına bilər.

2. Orqanizmdə hüceyrələr saniyədə 25 milyon dəfə yenilənir.
Bədənimizin hüceyrələri ən önəmli funksiyanı yerinə yetirir. Hər saniyədə 25 milyon dəfə yenilənən hüceyrələrin sayəsində orqanizm özünü tənzimləyir. Orqanizmin ən önəmli müdafiə qatı dəridir. Dəri toxumaları xarici mühitlə təmasda olduğu üçün tez-tez dəyişikliklərə məruz qalır. Məhz sürətlə yenilənən hüceyrələr sayəsində dəridə olan kəsiklər, müxtəlif yaralar, yanıqlar qısa müddətdə sağalır.

3. İnsan bədənində mövcud olan damarların ümumi ölçüsü 100 min kilometrdir.
Əgər insan orqanizmində böyük arteriyallardan kiçik kapilyarlara qədər bütün damarları bir xətt üzrə ağız-ağıza qoysaq, yer kürəsini iki dəfə sarımaq olar.

**4. İnsan beyni dəqiqədə 1000 söz oxuya bilər.**
Araşdırmalara görə insanlar kitabı səssiz oxuyarkən ucadan oxuduqlarından 2 dəfə daha sürətli oxuyurlar. Ümumi götürsək, 3 cür oxunuş forması mövcuddur — bədahətən yəni sərbəst cümlələr quraraq, ucadan oxuyarkən və vizual oxuma — yəni səssiz. Sözləri özümüz seçsək də, bu şəkildə insan beyni ən ləng nəticəni göstərib — dəqiqədə 250 söz. Ucadan oxuyarkən beynimiz dəqiqəyə 450 söz oxuya bilir. Amma vizual oxuma zamanı dəqiqədə 700 söz qeydə alınıb. Bəzən sürətli oxuyan gəncləri görüb heyrətlənirik. Bu bütün insanlarda belədir. Sadəcə aktiv şəkildə çox mütaliə edərək bu nəticələri və hətta daha yüksək nəticələrə nail olmaq olar.

**5. İnsanın saçları dəhşətli dərəcədə güclüdür.**
Orta hesabla, insanın başında təxminən 150 min tük bitir. Birlikdə toplanmış saç 12 ton ağırlığı qaldıra biləcək gücə malikdir. Bu təxminən iki nəhəng filin çəkisi deməkdir. Bundan başqa bir tel çəkisi çox olmayan kiçik bir butulkanı qaldıra bilər.

**6. Qadınlar kişilərə nisbətən rəngləri daha yaxşı ayırırlar.**
İnsan orta hesabla milyon rəng və onun müxtəlif çalarlarını ayırmağı bacarır. Rəngi seçmək üçün gözlərdə xüsusi neyronlar və dəqiq seçimi tənzimləyən kiçik kolbalar mövcuddur. Kiçik kolbaların əksər hallarda 3 tipi məlumdur. Birinci genetik mutasiyalar zamanı yaranan 4-cü dərəcəli kolbalardır ki, onların sayəsində insanlar normal gözlə seçilməyəcək rəngləri, rəng çala55rlarını belə rahat ayıra bilirlər. Tetraxromat tip insanlar rənglərdə bəzən seçim edə bilir, bəzən isə yox. Digər növ isə 100-ə yaxın rəng və rəng çalarlarının seçimini təmin edir. Bu proseslər yalnız qadın orqanizminə xasdır. Bir də daltonizm anlayışı var. Görmə pozulması ilə səciyyələndirilən və rəng seçimi verməyən xəstəlikdir. Statistikaya görə, kişilərdə xüsusilə tez-tez rast gəlinir.

Göz yaşları haqqında 10 fakt

1. Körpələr əvvəl ağlamağı, sonra isə gülməyi öyrənir.

**2.** Göz yaşlarının tərkibində olan lizosim maddəsi təbii antibiotikdir. Bu maddə gözləri infeksiyalardan qoruyur.

**3.** Göz yaşlarının kimyəvi tərkibi dəyişilir. İnsan kədərdən ağlayanda göz yaşları daha duzlu, hətta acı olur, sevincdən ağlayanda isə əksinə.

**4.** Elmi araşdırmalara görə, ağlamaq həqiqətən stressi azaldır. Müşahidələr göstərib ki, ağladıqdan dərhal sonra insanlar özünü daha pis hiss edir. Lakin yarım

saat keçdikdən sonra insan yüngüllük hiss etməyə başlayır.

**5.** Ağlama zamanı göz yaşları ilə birlikdə stress hormonları ifraz olunur.

**6.** Göz yaşlarının 98%-i sudur, qalanı isə duz, zülal, hormonlar və bəzi digər maddələrdir.

**7.** Göz yaşlarının tərkibinə görə insanın bəzi göz xəstəliklərini və göz travmalarını aşkar etmək mümkündür.

**8.** Amerika alimləri aşkar ediblər ki, daha çox ağlayan insanlar daha kreativ və yaradıcı olur.

**9.** Eksperimentlər göstərib ki, ağlamaq həm fiziki, həm də emosional ağrıları azaldır.

**10.** Niyə qadınlar daha çox ağlayır? Məsələ burasındadır ki, kişi hormonu olan testosteron göz yaşlarının ifrazını azaldır, qadın hormonu oksitosin isə əksinə artırır. Yaşlaşdıqca kişi orqanizmində testosteronun ifrazı azalır və bu səbəbdən yaşlı kişilər daha «ağlağan» olur.